QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 146 (5866) **15 avqust** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycanda qeyri-neft sektorunun dinamik və dayanıqlı inkişafı təmin edilib

*İlham Əliyev: "Bizim əsas strateji məqsədimiz, hədəfimiz ölkəmizi daha da gücləndirməkdir"*

Səh 2



5

"Azərbaycan Sərhəd Mühafizəsi: dünən, bu gün və sabah"



5

Müdafiə naziri Zakir Həsənov cəbhə zonasında olub



6

İdmançılar pulsuz məşqçilik xidməti, geyim və ləvazimatlarla təmin olunacaq



# Azərbaycanda qeyri-neft sektorunun dinamik və dayanıqlı inkişafı təmin edilib

*İlham Əliyev: "Bizim əsas strateji məqsədimiz, hədəfimiz ölkəmizi daha da gücləndirməkdir"*



***Azərbaycan Prezidenti İlham Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi sosial-iqtisadi siyasət ölkəmizin davamlı inkişafının təmin olunmasında həlledici rol oynayır. Reallaşan dövlət proqramları, investisiya layihələrinin uğurla icrası Azərbaycanda qeyri-neft sektorunun sürətli və rəqabətədavamlı inkişafının təmin olunması ilə nəticələnib. Uğurla həyata keçirilən dövlət proqramları və bu sahədə görülən tədbirlər qeyri-neft sektorunun davamlı inkişafına, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına təkan verib. Artıq bu ilin əvvəlindən regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü Dövlət Proqramının icrasına başlanılıb. Bu günə qədər reallaşan dövlət proqramları böyük uğurla icra olunub. Görülən işlər əhalinin rifahının yüksəlməsinə və regionların simasının tamamilə dəyişməsinə səbəb olub. Dövlət proqramlarının icrası məşğulluğun təmin olunması istiqamətində atılan vacib addımlardan biridir. Regionlarda yaradılan biznes mühiti, kənd təsərrüfatı və sənayenin inkişafı üçün infrastruktur artıq öz bəhrəsini verməkdədir.***

Həyata keçirilən iqtisadi islahatlar nəticəsində, qeyri-neft sektorunun potensial imkanları genişlənib və yeni istehsal sahələri yaradılıb. Ölkə itisadiyyatı bu ilin altı ayında 2,4 faiz, qeyri-neft sektoru isə 3,2 faiz artıb. Bu gün Azərbaycan brendi ilə xarici bazarlara qeyri-neft sektoru məhsulları-şərab, meyvə-tərəvəz, çay, şirələr, mineral sular, tekstil və digər məhsulları dünya bazarlarına çıxarılır. Respublikamızdan ixrac edilən məhsullar alıcıların geniş marağına səbəb olub. Bütün bunlar dövlət başçısı tərəfindən bu sahəyə ayrılan diqqətdir.

### "BU GÜN İNKİŞAF PARAMETRLƏRİNƏ VƏ VƏTƏNDAŞ HƏMRƏYLİYİNƏ GÖRƏ AZƏRBAYCAN DÜNYADA NÜMUNƏVİ ÖLKƏLƏRDƏN BİRİDİR"

Təbii ki, bu uğurlar ölkəmizdə hökm sürən sabitliyin və əmin-amanlığın mövcudluğunu təsdiqləyir. Azərbaycan Prezidenti İlham Əliyev, çıxışlarının birində vurğuladığı kimi, sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur, vəziyyət mənfi istiqamətdə inkişaf edir: "Bu, həqiqətdir və yaxın tarixin nəticələri, bölgəmizdə yaşanan böhranlı vəziyyət bunu təsdiqləyir. Azərbaycan isə təhlükəsizlik, əmin-amanlıq və sabitlik şəraitində öz yolu ilə uğurla gedir. Bu gün inkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir".

Son 16 ilin reallıqları, bir daha göstərir ki, ölkəmizdə icra olunan islahatlar, həyata keçirilən dövlət proqramları bütün sahələrdə uğurların əldə olunması ilə nəticələnib. Bütün mövcud iqtisadi problemləri, insanları narahat edən sosial məsələləri əhatə edən dövlət proqramları ölkəmizin dinamik inkişafını təmin etməklə yanaşı, bölgələrin potensialının artmasına və əhalinin rifahının yüksəlməsinə geniş şərait yaradıb. Dövlət başçısı çıxışlarının birində vurğulayıb: "Mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, siyasətimizin təməlində Azərbaycan vətəndaşının maraqları dayanır. Eyni zamanda, bizim əsas strateji məqsədimiz, hədəfimiz ölkəmizi daha da gücləndirməkdir, Azərbaycan dövlətinin qüdrətini artırmaqdır, müstəqilliyimizi möhkəmləndirməkdir".

Regionlarda iş yerlərinin açılması və məşğulluğun təmin olunması istiqamətində kənd təsərrüfatı üçün vacib olan aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması istiqamətində ciddi işlər aparılır. Belə ki, 51 aqroparkın yaradılması istiqamətində ciddi addımlar atılıb və artıq iyirmi iki aqropark fəaliyyətdədir, bu ilin sonuna qədər 11 aqroparkın fəaliyyətə başlaması gözlənilir. Bu layihələrin icrası nəticəsində, ölkə iqtisadiyyatına 2,4 milyard manat əlavə investisiya qoyulacaqdır. Eyni zamanda, bu layihələrin icrası nəticəsində, 4 mindən çox yeni iş yeri yaradılacaqdır.

### "ƏMİNƏM Kİ, GƏLƏCƏK İLLƏRDƏ KƏND TƏSƏRRÜFATI DAYANIQLI ŞƏKİLDƏ İNKİŞAF EDƏCƏK"

Ölkəmizdə, bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatının inkişafında da böyük irəliləyişlərə nail olunmuşdur. Dövlət başçısının ölkəmizdə kənd təsərrüfatının strateji sahələrinin inkişaf etdirilməsi ilə bağlı verdiyi qərarlar və tapşırıqlar əsasında aqrar sahədə böyük canlanma yaranıb. Təkcə cari ilin altı ayında bu sahədə artım 13 faiz təşkil edir. Dövlət başçısının vurğuladığı kimi, bu, onu göstərir ki, qoyulan investisiyalar, aparılan islahatlar, verilən subsidiyalar, kənd təsərrüfatına elmi yanaşma öz nəticəsini verməkdədir: "Əminəm ki, gələcək illərdə kənd təsərrüfatı dayanıqlı şəkildə inkişaf edəcək və beləliklə, həm məşğulluğun, eyni zamanda, kənd təsərrüfatı ixracının artırılmasına xidmət göstərəcək".

Respublikada pambıqçılıq, taxılçılıq, tütünçülük və digər kənd təsərrüfatı bitkilərinin və heyvandarlıq məhsullarının istehsalına xüsusi diqqət ayrılıb. Bu diqqət ciddi irəliləyişlərə səbəb olub. Bu il 1 milyon 12 min hektarda taxıl əkini həyata keçirilib. Bunun 670 min hektarını buğda, 342 min hektarını isə arpa əkini təşkil edib. Həyata keçirilən



tədbirlər nəticəsində, əsas məsələ düzgün texniki təminatın təmin edilməsi olub.

Ölkəmizdə kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafı təmin edilib, pambıqçılıq, taxılçılıq və digər kənd təsərrüfatı bitkilərinin və heyvandarlıq məhsullarının istehsalında böyük artıma nail olmaq məqsədilə əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına da diqqət ayrılıb. Belə ki, yeni suvarılacaq torpaqların istifadəyə verilməsi üçün mühüm tədbirlər həyata keçirilib, su anbarları, nasos stansiyaları, magistral kanallar və digər su təsərrüfatı obyektləri tikilib istifadəyə verilib. Onu da, qeyd edək ki, son 16 il ərzində, su anbarları Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay kimi su anbarları tikilərək istifadəyə verilib. Cənab Prezidentin vurğuladığı kimi, onların arasında Taxtakörpü və Şəmkirçay su anbarları böyüklüyünə və kənd təsərrüfatına təsirinə görə, xüsusi yer tutur: "Bu, nəhəng tarixi infrastruktur layihələridir. Bu anbarlar, çəkilmiş və çəkilən kanallar on minlərlə hektar əkin sahəsini suvarmaq üçün həlledici rol oynayır. Meliorativ tədbirlər kənd təsərrüfatının inkişafına, bilavasitə təsir edən infrastruktur layihələridir. Bu sahəyə qoyulan böyük vəsait, eyni zamanda, sahibkarlığa dövlət tərəfindən göstərilən növbəti dəstəyin təzahürüdür".

Təbii ki, kənd təsərrüfatı hər bir ölkə üçün önəmli bir sahədir. Odur ki, bu sahənin inkişafı ilə bağlı, ardıcıl olaraq, tədbirlər həyata keçirilir. "Fermerlərə əlavə güzəştlər edilir, texnika ilə bağlı təminat yüksək səviyyədədir" deyən dövlət başçısı bu il 700-dən çox texnikanın satılmasının artıq təmin edildiyini bildirib: "Əvvəlki illərdə böyük sayda kənd təsərrüfatı texnikasının alınması hesabına biz bu sahənin inkişafına nail ola bildik. Əlbəttə, burada müasir texnologiyalar və müasir suvarma sistemləri əsas rol oynayır. İndi Azərbaycanda azot gübrəsi zavodu da fəaliyyət göstərir. Yəni xaricdən azot gübrəsinin alınmasına ehtiyac qalmır. Pivot tipli suvarma sistemləri Azərbaycanda istehsal edilməyə başlamışdır. Yəni bu sahədə biz özümüzü təmin etmək üçün, əlbəttə ki, çox ciddi addımlar atırıq. Əminəm ki, növbəti illərdə bu sahədə daha da böyük nəticələr əldə ediləcək".

Göründüyü kimi, Azərbaycan vətəndaşının bu gününə, sabahkı rifahına, xoş gələcəyinə yönəldilmiş islahatlar və dövlət proqramları uğurla icra olunur və bunun nəticələrini hər bir ölkə vətəndaşı həyatında hiss edir.

**_Nəzakət ƏLƏDDİNQIZI_**

# Əhalinin layiqli həyat səviyyəsini təmin etmək dövlətin siyasətinin prioritetlərindəndir

*Prezident İlham Əliyevin böyük sosial islahatlar paketi çərçivəsində imzaladığı sərəncam və fərmanlar, sosial sahədə qəbul olunmuş qərarlar miqyasına və əhatə dairəsinə görə inqilabi qərarlardır*

***Azərbaycanda əhalinin layiqli həyat səviyyəsini təmin etmək və sosial rifahını yüksəltmək dövlətin siyasətinin prioritetlərindəndir. Prezident İlham Əliyevin bu ilin 6 ayı ərzində böyük sosial islahatlar paketi çərçivəsində imzaladığı sərəncam və fərmanlar, sosial sahədə qəbul olunmuş qərarlar miqyasına, əhatə dairəsinə görə inqilabi qərarlardır. Heç şübhəsiz, düşünülmüş və ardıcıl olaraq həyata keçirilən islahatların nəticələri Prezident İlham Əliyevin cəsarətli, inamlı addımları ölkə vətəndaşlarının xoş gələcəyinə hesablanmış qətiyyətli siyasətin təzahürüdür.***



İyulun 31-də dövlət başçısının yanında keçirilən sosial-iqtisadi müşavirədə aparılan müzakirələr və səslənən fikirlər, bir daha göstərdi ki, ölkəmizdə inkişaf kompleks xarakter daşımaqla, bütün sahələri əhatə edir. İqtisadiyyatda, kənd təsərrüfatında, ticarət dövriyyəsində, büdcə daxilolmalarında və s. istiqamətlərdə göstəricilərdə ciddi artımlar iqtisadi siyasətin düzgün və uğurla həyata keçirildiyinə dəlalət edir. Xüsusilə, əhalinin sosial təminatının daha da yaxşılaşdırılması istiqamətində atılan hər bir addım bu gün öz bəhrəsini verməkdədir. Məhz bu gerçəkliyin özü xalqın dövlətə olan etimadına, o cümlədən, dövlətin xalqa arxalanması amilinə çox böyük stimul verir.

Uğurlu iqtisadi islahatlar əlavə gəlirlərin həcmini artırmaqla, insanların sosial-iqtisadi rifahının daha da yüksəldilməsinə və kompleks sosial paketlərin həyata keçirilməsinə imkan verir. Bu da, bir daha göstərir ki, dövlət idarəetməsində, genişmiqyaslı islahatların həyata keçirilməsinin mərkəzində insan amili və sosial rifahın yüksəldilməsi dayanır. Hələ 2018-ci ilin sonlarında qarşıdan gələn dövrdə əhalinin sosial durumunun daha da yüksəldilməsinin prioritet təşkil edəcəyini bəyan edən ölkə başçısı İlham Əliyev hər zamankı kimi sözünə və əməlinə sadiqliyini nümayiş etdirdi.





Prezidentin iki böyük sosial islahat paketi xalq tərəfindən çox yüksək dəyərləndirildi. Birinci paket 3 milyon vətəndaşın maaş, pensiya, sosial müavinətlərinin artırılmasını təmin etdi və mühüm sosial məsələlərin həllinə 1,6 milyard manat yönləndirildi. İkinci paketin icrası ilə bağlı hazırlıq işləri tamamlanıb və sentyabrın 1-dən minimal əmək haqqının 250 manata çatdırılması, əlavə olaraq, 400 min nəfərin maaşının 20-50 faiz artırılması, 750 min pensiyaçıya verilən vəsaitin oktyabrın 1-dən yüksəldilməsi nəzərdə tutulub. Hər iki paketin ümumi məbləği cari il üçün 2,3 milyard manat, gələn il üçün isə daha 3 milyard manat, ümumilikdə, 4,2 milyon vətəndaşın əhatə edilməsini və 5,3 milyard manatın sərf olunmasını nəzərdə tutur.

Sosial sahə üzrə görülən işlər, bir tərəfdən, Azərbaycan dövlətinin gücünü, digər tərəfdən isə, Prezidentin həyata keçirdiyi siyasətin effektivliyini və reallaşdırılan islahatların yüksək praktiki nəticələr verdiyini göstərir. Təkcə onu demək kifayətdir ki, Azərbaycanda minimal pensiya 72 faiz artdığından, ölkəmiz minimal pensiya üzrə alıcılıq qabiliyyətinə görə, MDB-də birinci olacaq. Minimal əməkhaqqının 250 manata çatdırılmasından sonra isə, Azərbaycan bu göstərici üzrə MDB-də ikinci sırada qərarlaşacaqdır. Bundan başqa, müavinətlərin və təqaüdlərin artırılması 300 min əlilliyi olan şəxsi, 500 min məcburi köçkünü, 100 mindən artıq tələbəni, ümumilikdə, 1,3 milyon insanı əhatə etmişdir. Ən əsası, bu addımlar aztəminatlı təbəqəni əhatə etməklə, bu kateqoriyaya aid olan insanların sosial durumunun xeyli yaxşılaşdırılmasını təmin edir.

Son 3 ayda elə bir sahə yoxdur ki, maaşlarda, sosial müavinətlərdə və təqaüdlərdə artımlar edilməsin. Əlavə edək ki, dövlət başçısının digər təşəbbüsü sosial sığorta sahəsində böyük irəliləyişi təmin edib. Belə ki, 2006-2018-ci illərdə sığortaya, hətta cüzi məbləğ ödəyənlərə belə, 25 illik sığorta stajı hesablanıb. Bunun nəticəsində, yanvarın 1-dən heç bir bürokratik əngəl olmadan, 13 min nəfərə pensiya təyin olunub.

Prezident İlham Əliyev, bununla da qənaətlənməyərək, məşğulluq proqramı üzrə görülən işlərin sürətləndirilməsini tələb edib. Ötən il bu proqram 6 min ailəni əhatə edib, bu il isə əlavə vəsaitlərin cəlb olunması nəticəsində, 10 min ailənin əhatə olunması nəzərdə tutulub.

Bir sözlə, bu günün mənzərəsi, onu deməyə əsas verir ki, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün dövlət başçısının böyük sosial islahatlar paketi çərçivəsində hələ çox qərarlar qəbul olunacaq və 2019-cu il Azərbaycan tarixinə sosial islahatlar ili kimi düşəcək.

***"Səs" Analitik Qrupu***

# Azərbaycan və Rusiya arasında salınan dostluq körpüsü

*Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Azərbaycan-Rusiya münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsindəki xidmətlərinə görə "Dostluq" ordeni ilə təltif olunub*



***Bu gün Azərbaycan dünya ölkələri ilə münasibətləri dostluq, qarşılıqlı maraq, hörmət əsasında qurub və bu əlaqələr bir çox sahələri əhatə edir. Azərbaycan dünyanın bir çox ölkələri ilə yanaşı, Rusiya ilə də əlaqələri daimi diqqətdə saxlayır. Azərbaycan və Rusiya arasında müxtəlif sahələri əhatə edən müqavilələr və sazişlər imzalanıb. Bu münasibətlər bu gün yeni müstəvidədir. Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə, mütəmadi olaraq keçirdiyi görüşlər, ikitərəfli və beynəlxalq gündəmdə olan əsas mövzularla bağlı müzakirələr bu əlaqələrin genişlənməsinə gətirib çıxarır.***

Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə vurğulayıb ki, ictimai-siyasi və humanitar sahələrdə Rusiya ilə Azərbaycan arasında siyasi dialoq, fəal parlamentlərarası və regionlararası əməkdaşlıq tənzimlənib. Ticari-iqtisadi, investisiya, elmi-texniki və humanitar əlaqələr və vətəndaş cəmiyyəti təsisatları arasında kontaktlar genişlənir. Təbii ki, Rusiya və Azərbaycanı möhkəm dostluq və əməkdaşlıq ənənələri bir-birinə bağlayır. Dövlətlərin münasibətləri qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyır, mehriban qonşuluq və bir-birinin marağına hörmət prinsiplərinə əsaslanır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın da bu münasibətlərin inkişafında xidmətləri kifayət qədərdir. Elə bu günlərdə Azərbaycan-Rusiya münasibətlərinin inkişaf etdirilməsi və möhkəmləndirilməsindəki xidmətlərinə görə Rusiya Prezidenti Vladimir Putinin Fərmanı ilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Federasiyasının "Dostluq" ordeni ilə təltif olunub.

Humanist, xeyriyyəçi layihələrin təşəbbüskarı kimi nüfuz qazanan Mehriban Əliyeva çoxşaxəli fəaliyyəti və genişmiqyaslı layihələri ilə beynəlxalq aləmdə böyük nüfuza malikdir. O, təkcə Azərbaycanda deyil, bir sıra məkanlarda geniş aksiyalar həyata keçirir. Bu humanitar və mədəni tədbirlər, artıq beynəlxalq məkana bəlli olan həqiqətdir. Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasında "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi maraq doğuran və əhəmiyyətli tədbirlər sırasındadır. Layihə çərçivəsində müsəlman məscidləri ilə yanaşı, xristian kilsəsi də bərpa edilib, Azərbaycanda yaşayan yəhudi uşaqları üçün məktəb və mədəni mərkəz inşa olunub. Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpasında, bir sıra digər layihələrdə də təşəbbüskar olaraq iştirak edib. Bütün bunlar Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə ehtiva edir. Mehriban xanım Əliyevanın müsahibələrinin birində dediyi kimi, dünyəvi müsəlman ölkəsi olan Azərbaycan yalnız xristian aləminə aid müqəddəs yerlərin və tarixi-mədəni abidələrin bərpasında iştirak etmir, eyni zamanda, ümumdünya əhəmiyyətli abidələri bərpa edir. Bu, fondun həyata keçirdiyi mühüm siyasətdir. Heydər Əliyev Fondu xristian aləminin incəsənəti, mənəvi dəyərləri, onun mədəniyyətinin daha da nümunəvi tərzdə parlamasına öz töhfəsini verir. Azərbaycanda bütün dövrlərdə, ictimai-siyasi quruluşdan asılı olmayaraq, müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanların sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşadığını çıxışlarının birində bildirən Mehriban xanım Əliyeva "Bu gün də çoxkonfessiyalı və çoxmillətli Azərbaycan bu ənənələrə sadiqdir və bu, ən böyük sərvətlərdən biridir" deyib.

## XALQLAR ARASINDA DOSTLUĞUN MÖHKƏMLƏNMƏSİNƏ SANBALLI TÖHFƏLƏR

Bu görülən işlərin məntiqi olaraq, bu cür mühüm layihələr Rusiyada da həyata keçirilir. Elə Moskvadakı Xilaskar İsa Məbədində Azərbaycanın Birinci vitse-prezidentinə Rus Pravoslav Kilsəsinə göstərdiyi köməyə və Həştərxan şəhərinin abadlaşdırılmasına qayğısına görə II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə təltif edilməsi də bu əməllərdən qaynaqlanır. Moskvanın və bütün Rusiyanın patriarxı Kirill Patriarx Həştərxanda olarkən, Mehriban Əliyevanın Rus Pravoslav Kilsəsinin Müqəddəs Mələksima Knyaginya Olqa ordeninə layiq görülməsi barədə qərar qəbul etmişdi. Qeyd edək ki, Knyaginya Olqa Rusiyanı xristianlaşdıran və vahid rus dövlətinin qurulmasında həlledici rol oynayan Knyaz Vladimirin nənəsi olub. 1988-ci ildə Rusiyada xristianlığın qəbul edilməsinin 1000 illiyi ilə əlaqədar təsis olunan Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə kilsə, dövlət və ictimai həyatın müxtəlif sahələrində böyük xidmətləri olan qadınlar təltif edilirlər. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva belə fəxri mükafata layiq görülməsindən və fəaliyyətinin bu cür yüksək qiymətləndirilməsindən xüsusi fərəh duyduğunu bildirərək, qeyd etmişdi ki, 2013-cü ildə Müqəddəs Mələksima Knyaz Vladimirə abidə ucaldılması, bu abidənin açılışı bizim üçün xüsusi əhəmiyyət kəsb edir: "Bu abidənin yaradılması üzərində Azərbaycanın ən yaxşı rəssamları və memarları çalışıb. Onlar bir il ərzində bizim Rus Pravoslav Kilsəsinə dərin hörmət və ehtiramımızı ifadə edən möhtəşəm monument yaratdılar".

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2012-ci ilin sentyabrında Həştərxanda Rusiya-Azərbaycan Dostluq Körpüsü, 2013-cü ildə Rusiyanın Volqoqrad şəhərində "Volqoqrad-Bakı Dostluq Parkı" istifadəyə verilmişdir.

Onu da vurğulayaq ki, ictimai, mesenatlıq və xeyriyyəçilik fəaliyyətinə görə, təhsil və mədəniyyət müəssisələrinin dəstəklənməsinə, Rusiya və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsinə sanballı töhfələrinə görə Azərbaycanın Birinci vitse-prezidenti Rusiyanın "Yüzilliyin mesenatları" Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut Xaç" ordeninə layiq görülmüşdü. Daha sonra "İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Fəxri professoru" Diplomu və Xatirə nişanı ilə təltif edilib.

## "BU GÜN AZƏRBAYCANDA RUS PRAVOSLAV KİLSƏSİNƏ MƏNSUB OLAN DİNDARLARIN SAYI 100 MİNDƏN ÇOXDUR"

Azərbaycan multikultural bir dövlət kimi dünyada tanınır. Tarixi İpək Yolunda yerləşən Azərbaycan ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyardır və ölkəmizdə multikulturalizm-alternativi olmayan həyat tərzinə çevrilib. Təsadüfi deyil ki, dünya dövlətləri Azərbaycanın bu sahədə öz təcrübəsini yaymasında maraqlıdır. Azərbaycan yüksək dəyərlərə malik olan multikultural cəmiyyətdir. Bu dəyərlər insanları sülhə və dostluğa səsləyir. Azərbaycanın Birinci vitse-prezidenti çıxışında Azərbaycanın çoxmillətli və çoxkonfessiyalı dövlət olduğunu bildirərək, qeyd etmişdi ki, multikulturalizm, qarşılıqlı hörmət xalqımızın dünyagörüşünün və Azərbaycan hökumətinin dövlət siyasətinin əsasını təşkil edir. Azərbaycan torpağında müxtəlif konfessiyaların, müxtəlif sivilizasiyaların və mədəniyyətlərin nümayəndələri əsrlər boyu sülh və həmrəylik şəraitində yaşayıblar: "Ölkəmizin ərazisində yaşayan bütün xalqların bu mədəni müxtəlifliyi, heç şübhəsiz, bizim sərvətimizdir. Bu sözlər, bütünlüklə, rus pravoslav icmasına da aiddir. Bu gün Azərbaycanda Rus Pravoslav Kilsəsinə mənsub olan dindarların sayı 100 mindən çoxdur".

## AZƏRBAYCAN DOSTLUĞUN MÖHKƏMLƏNMƏSİNƏ, SÜLH VƏ ƏMİN-AMANLIĞA ÖNƏM VERİR

"Bu gün Rusiya ilə Azərbaycan arasında münasibətlər mehriban qonşuluq, qarşılıqlı hörmət və dostluq əsasında qurulur" deyən Mehriban Əliyeva müasir Azərbaycanda böyük rus ədəbiyyatına və mədəniyyətinə tükənməz marağın olduğunu da qeyd edir. Məktəblərdə rus dilinin öyrənilməsi tam həcmdə saxlanılıb və ölkəmizdə təhsil prosesinin tamamilə rus dilində olduğu 300 məktəb, hətta 300-dən çox məktəb fəaliyyət göstərir. Paytaxtda Azərbaycan Dövlət Rus Dram Teatrı və Slavyan Universiteti fəaliyyətdədir. Rusiyanın aparıcı ali məktəblərinin Azərbaycanda filiallarının açılması meyili yaranıb, Lomonosov adına Moskva Dövlət Universitetinin filialı, Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialı çox uğurla fəaliyyət göstərir. Bütün bunların Azərbaycanla Rusiya arasında uğurlu əməkdaşlığına nümunədir.

Bütün dünyada, eləcə də, islam dünyasında böyük hörmətə, nüfuza malik olan Azərbaycan birgəyaşayışa, qarşılıqlı əməkdaşlığa töhfələrini verir, prinsipial və ədalətli mövqeyi ilə seçilir. Dostluğun möhkəmlənməsinə, insani dəyərlərə, sülh və əmin-amanlığa, üstünlük verərək, sülsevər siyasətini dünyaya göstərir.

***Zümrüd BAYRAMOVA***

# “Azərbaycan Sərhəd Mühafizəsi: dünən, bu gün və sabah”



Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyinə həsr olunmuş silsilə bayram tədbirləri davam edir. SİA-nın verdiyi məlumata görə, bu gün Dənizkənarı Milli Parkda Dövlət Bayraq Meydanının yaxınlığında “Azərbaycan Sərhəd Mühafizəsi: dünən, bu gün və sabah” mövzusunda keçirilən tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında Azərbaycan Sərhəd Mühafizəsinin son illərdə inkişafı və əldə etdiyi xidməti nailiyyətlər haqqında ictimaiyyət geniş məlumatlandırılır, şəhər sakinlərinə, xüsusən də gənclərə və yeniyetmələrə Azərbaycan Respublikasının dövlət sərhədləri, sərhəd mühafizə tarixi, dövlət sərhədinin mühafizəsində tətbiq olunan hərbi və döyüş texnikası, silahlar və xüsusi sərhəd mühafizə avadanlığı barədə ətraflı məlumatlar verilir.





Tədbirdə DSX-nin döyüş və zirehli texnikası, uçuş vasitələri, pilotsuz uçan aparatları, sərhəd gözətçi gəmiləri, ən müasir silah və sursatları, sərhəd mühafizə və digər xüsusi hərbi avadanlıqlar, dövlət sərhədinin mühafizəsində istifadə olunan mühəndis-texniki qurğular, sərhəd nəzarəti texnikası nümayiş olunur.

İştirakçılara hərbi və döyüş texnikası ilə bilavasitə tanış olmaq, onların üzərində şəkil çəkdirmək, səhra mətbəxində əsgər yeməyindən dadmaq, interaktiv tirdə atəş açmaq, qısa müddət ərzində özlərini sərhədçi kimi hiss etmələri üçün şərait yaradılıb.

# Əlahiddə Ümumqoşun Orduda komandir hazırlığı məşğələləri keçirilib



Əlahiddə Ümumqoşun Orduda tabor, divizion komandirləri və müavinləri ilə komandir hazırlığı məşğələləri keçirilib. Müdafiə Nazirliyindən SİA-ya verilən məlumata görə, məşğələlərdə zabitlərin döyüş hazırlığı üzrə nəzəri bilikləri və praktiki vərdişləri yoxlanılıb.Əsas məqsəd zabitlərin əməliyyatı planlama vərdiş və səriştələrinin real tapşırıqlara uyğun təkmilləşdirilməsi, fərdi bacarıq və peşəkarlıq səviyyələrinin artırılması, yeni normativlər üzrə imtahanların qəbulu metodikasının işlənilməsi olub.



# Müdafiə naziri Zakir Həsənov cəbhə zonasında olub

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada tikintisi davam edən bir neçə hərbi obyektlərdə olub. Bu barədə SİA-ya Müdafiə Nazirliyindən məlumat verilib. Müdafiə nazirinə məruzə edilib ki, ilin sonunadək istifadəyə verilməsi planlaşdırılan bu hərbi şəhərciklər su, qaz, istilik və digər kommunikasiya sistemləri ilə tam təmin olunacaq, hərbi obyektlərdə ən müasir qurğular quraşdırılacaq. Bildirilib ki, bu hərbi şəhərciklərdə qərargahlar, zabit və əsgər yataqxanaları, yeməkxanalar, döyüş texnikası üçün saxlanclar, digər inzibati bina və qurğular inşa ediləcək. Eyni zamanda hərbi qulluqçuların yaşayışı və xidməti-döyüş tapşırıqlarını yerinə yetirmələrini təmin etmək məqsədilə müvafiq məişət və ictimai iaşə obyektləri, o cümlədən qazanxana, camaşırxana-hamamxana kompleksləri, tibb məntəqələri və digər infrastruktur obyektlərinin tikilməsi də nəzərdə tutulub. Yeni inşa edilən hərbi hissədə aparılan tikinti işlərinin gedişatını yoxlayan Müdafiə naziri inşaat işlərinin keyfiyyətli aparılması və vaxtında başa çatdırılması ilə əlaqədar müvafiq tapşırıqlar verib.





# DSX Akademiyasında yaradıcılıq müsabiqələrinin qalibləri mükafatlandırılıb



Dövlət Sərhəd Xidməti Azərbaycan Sərhəd Mühafizəsinin 100-cü ildönümünü yüksək inkişaf dinamikası və qazanılmış xidməti uğurlarla qarşılayır. SİA-nın məlumatına görə, Xidmətin çoxsahəli fəaliyyətində hərbi vətənpərvərlik tərbiyəsinə, Vətənə, onun sərhədlərinə məhəbbət hissinin aşılanmasına yüksək diqqət yetirilir. Bu istiqamətdə həyata keçirilən tədbirlər sırasında müxtəlif müsabiqələr xüsusi yer tutur.



Ənənəvi olaraq Azərbaycan Sərhəd Mühafizəsinin ildönümü ərəfəsində bədii ədəbiyyat, qəzet məqaləsi, təsviri sənət, mahnı, dekorativ-tətbiqi sənət nominasiyaları üzrə yaradıcılıq müsabiqələri, həmçinin orta məktəb şagirdləri arasında “Sərhədlərimizin keşiyində” mövzusunda inşa yazı müsabiqəsi keçirilib. Müsabiqələrdə 1000 nəfərdən çox yaradıcı insan, peşəkar və həvəskar yazıçılar, şairlər, rəssamlar, jurnalistlər, sərhədçi zabit və gizirlər, onların ailə üzvləri, əsgərlər, ümumtəhsil məktəblərinin şagirdləri iştirak ediblər.

Müsabiqə iştirakçıları tərəfindən təqdim olunmuş çoxsaylı əsərlərin sırasından ən yaxşıları seçilərək 30 şeir, 35 hekayə, 39 qəzet məqaləsi, 132 inşa yazısı, 21 mahnı və 136 rəsm və dekorativ-tətbiqi sənət əsəri müsabiqənin finalına buraxılmış, peşəkar mütəxəssislərdən ibarət münsiflər heyəti tərəfindən müsabiqənin finalçıları arasından qaliblər müəyyən edilib. Avqust ayının 13-də Dövlət Sərhəd Xidməti Akademiyasında Təhsil Nazirliyinin, Mətbuat Şurasının, Yazıçılar Birliyinin və Rəssamlar İttifaqının birgə təşkilatçılığı ilə keçirilmiş yaradıcılıq müsabiqələrinin qaliblərinin mükafatlandırılmasına həsr olunmuş təntənəli mərasim keçirilib.

Tədbirdə çıxış edənlər ulu öndər Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında dünyanın ən qabaqcıl və firəvan ölkələrindən birinə çevrilən Azərbaycan Respublikasında gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması ilə yanaşı onların intellektual inkişafına və yaradıcılıq fəaliyyətinə dövlət tərəfindən qayğı göstərildiyi, sərhədçilərin fədakar xidmətlərinin təbliğində, sərhədçi peşəsinə rəğbət və ehtiram hissinin aşılanmasında keçirilən müsabiqələrin çox böyük əhəmiyyət kəsb etməsi xüsusi vurğulanıb.

Mərasimdə müsabiqələrin qaliblərinə diplomlar və pul mükafatları təqdim olunub, müsabiqəyə təqdim olunmuş təsviri sənət nümunələri nümayiş etdirilib.

# Qaradağ rayonunda gənc əsgərlərin andiçmə mərasimi keçirilib

Qaradağ rayonundakı "N" saylı hərbi hissədə gənc əsgərlərin andiçmə mərasimi keçirilib. Andiçmə mərasimində Milli Məclisin deputatları -YAP İcra katibinin müavini Siyavuş Novruzov, millət vəkilləri - Rauf Əliyev, İlham Əliyev, Əliağa Heseynov, Fəzail Ağamalı və "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, YAP-ın gənc fəalları və əsgər valideynləri iştirak ediblər. Tədbiri açıq elan edən Hərbi Hissənin komandiri, polkovnik Siyavuş Mustafayev





tədbir iştirakçılarını salamlayaraq qeyd edib ki, hər bir əsgər üçün hərbi and içmək şərəfli və qürurlu hadisədir. "Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan Ordusunun qurucusu, Ulu Öndər Heydər Əliyev daim hərbçilərə diqqət və qayğı göstərib və bu gün cənab Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənabları Ordu quruculuğunu inkişaf etdirərək, Silahlı Qüvvələrimizi dünyanın ən güclüləri sı-



rasına daxil etmişdir", deyə qeyd edən S.Mustafayev əlavə edib ki, Azərbaycan əsgəri daim öz Vətəninin, dövlətinin ərazi bütövlüyünü göz bəbəyi kimi qoruyur və işğal altında qalan torpaqlarımızı hər an azad etməyə qadirdir: "Bu gün and içən hər bir gənc əsgər əmindir ki, düşmənə qalib gəlməyə qadirdir. Müdafiə Naziri Zakir Həsənov, Silahlı Qüvvələrimizin Baş Qərargah rəisi cənab Nəcməddin Sadıqov da öz fəaliyyətləri ilə daim Ordu quruculuğunda töhfələrini verir, əsgərlərimizin, zabit heyətinin qayğısına qalırlar. Mən bu gün and içən bütün əsgərlərimizi belə bir şərəfli gün münasibəti ilə təbrik edir, xidmətlərində uğurlar diləyirəm".

Sonra söz YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzova verilib. Millət vəkili vurğulayıb ki, müasir və müstəqil Azərbaycan Ordusunda hərbi xidmət keçmək şərəflidir. "Bu gün buraya toplaşan hər bir əsgər valideyni övladının hərbi and içməsindən qürur duyur. Çünki gənc əsgərlərin hər biri ana Vətəninin xidmətində dayanacaq. Eyni zamanda, hərbi xidmət keçmək böyük bir həyat məktəbidir. Bu məktəbi keçən əsgərlərimiz gələcək həyatlarında dövlət və Vətən sevgilərini daha dərindən aşılayacaqlar. Belə bir qürur hissini əsgərlərimiz və onların valideynləri ilə birgə keçirməkdən biz də şərəf duyuruq. Burada hərbi xidmət keçən bütün əsgərlərimizi, zabit heyətini təbrik edir, fəaliyyətlərində uğurlar arzulayıram. Yaşasın Azərbaycan Ordusu, Yaşasın Ali Baş Komandanımız cənab İlham Əliyev!". Daha sonra Vətənə xidmət andı içmiş gənc əsgər Azad Məmmədov və gənc matros Murad Cahangirov çıxış edərək qeyd ediblər ki, Azərbaycan Respublikasına xidmət etməkdən qürur duyurlar və öz hərbi xidmətlərini layiqincə yerinə yetirib, Vətən borcundan şərəflə çıxacaqlar. Çıxış edən əsgər nənəsi Şəfaqət Məmmədova isə öz növbəsində hərbi hissə rəhbərliyinə belə bir tədbir keçirdiklərinə görə bütün valideynlər adından minnətdarlığını bildirib və qeyd edib ki, hər bir and içmiş əsgər belə bir tarixi günü yaşamaqla onu öz həyat səhifəsinə yazacaq. "Belə bir gün münasibəti ilə hər kəsi təbrik edir, xidmətlərini uğurla başa vurmalarını arzulayıram", deyə o qeyd edib. Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra, bədii hissə başlayıb. Respublikanın tanınmış incəsənət ustaları öz musiqi töhfələri ilə tədbir iştirakçılarına xoş ovqat bəxş ediblər.

***Rövşən Nurəddinoğlu***



# İdmançılar pulsuz məşqçilik xidməti, geyim və ləvazimatlarla təmin olunacaq

Azərbaycandakı Olimpiya İdman Komplekslərinə cəlb olunan uşaq və yeniyetmələr dörd idman federasiyası tərəfindən pulsuz məşqçilik xidməti, geyim və ləvazimatlarla təmin olunacaq. Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən irəli sürülən bu təşəbbüsə ilk olaraq Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Boks, Taekvondo və Cüdo Federasiyaları qoşulub. Gələcəkdə digər idman federasiyalarının da bu ak-





siyaya qoşulacağı gözlənilir. SİA-nın verdiyi məlumata görə, bu barədə YAP-nın təşəbbüsü və təşkilatçılığı ilə Xaçmaz Olimpiya İdman Kompleksində keçirilən kütləvi idman bayramında bildirilib. Tədbirin əvvəlində rayon idmançılarının nümunəvi çıxışları təqdim olunub. İdman bayramında Yeni Azərbaycan Partiyası icra katibinin müavini Siyavuş Novruzov, Milli Məclisin komitə sədrləri Eldar İbrahimov, Ziyad Səmədzadə, deputatlar İlham Əliyev, Xanhüseyn Kazımlı, Rauf Əliyev, Azər Badamov, Yevda Abramov çıxış edərək tədbirin əhəmiyyətindən, həmçinin ölkəmizdə idman sahəsində həyata keçirilən uğurlu dövlət siyasətindən danışıblar. Bildirilib ki, bu gün Azərbaycan dünyada nüfuzlu idman ölkəsi kimi tanınır. İdmançılarımızın istər ölkə daxilində, istərsə də respublikamızdan kənarda əldə etdikləri uğurlu nəticələr bunu bir daha təsdiqləyir. Azərbaycanın mötəbər idman yarışlarına uğurla ev sahibliyi etməsi də respublikamızın idman ölkəsi olduğunu sübut edir. Bu yarışların təşkili çoxlu sayda azarkeşin ölkəmizə təşrif buyurmasına, eyni zamanda, respublikamızda turizmin və iqtisadiyyatın inkişafına, Azərbaycanın dünyada daha da tanınmasına təkan verir.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin qayğısı sayəsində ölkədə idman və bədən tərbiyəsi sahəsində sürətli inkişaf prosesi gedib, böyük uğurlar əldə edilib. Bakıda və bölgələrdə 40-dan çox Olimpiya İdman Kompleksi, xeyli sayda idman qurğuları, stadionlar və digər idman meydançaları tikilib istifadəyə verilib, mövcud idman obyektləri yenidən qurulub. 2015-ci ildə Azərbaycan tarixdə ilk dəfə keçirilən Avropa Oyunlarına ev sahibliyi edib. 50 ölkəni təmsil edən 6 min idmançının iştirak etdiyi Oyunlarda komandamız ümumi hesabda ikinci yeri tutub, 21-i qızıl olmaqla, 56 medal qazanıb. 2017-ci ilin mayında Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarında isə Azərbaycan komanda hesabında birinci yeri tutub. Çıxışlarda qeyd olunub ki, bu cür kütləvi idman tədbirləri uşaqların idmana olan marağını artırır, fiziki və mənəvi sağlamlığını təmin edir. Bayram tədbirinin sonunda tamaşaçılara tanınmış müğənnilərin ifalarından ibarət konsert proqramı təqdim olunub. İlk dəfə Xaçmazda keçirilən idman bayramının respublikamızın digər bölgələrindəki bütün olimpiya idman komplekslərində təşkili nəzərdə tutulub.

# İqtisadiyyat Nazirliyində kollegiya iclası keçirilib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında keçirilmiş sosial-iqtisadi sahə ilə bağlı müşavirədə dövlətimizin başçısı tərəfindən verilmiş tapşırıqların icrası ilə əlaqədar olaraq İqtisadiyyat Nazirliyinin geniş kollegiya iclası keçirilib. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, nazirliyin strukturlarının və tabeliyindəki qurumların rəhbərlərinin iştirakı ilə keçirilmiş iclasda İqtisadiyyat naziri, Kollegiyanın sədri Şahin Mustafayev vurğulayıb ki, müşavirədə Azərbaycan Respublikasının Prezidenti 2019-cu ilin birinci yarımilliyində ölkəmizin inamla inkişaf etdiyini, böyük infrastruktur layihələrinin icra olunduğunu qeyd edib, görülmüş işləri müsbət qiymətləndirib. Qeyd edilib ki, dünya miqyasında uğurla inkişaf edən ölkələr sırasında olan Azərbaycan iqtisadiyyatı bu ilin birinci yarımilliyində 2,4 faiz, qeyri-neft sektoru 3,2 faiz, qeyri-neft sənayesi 15,7 faiz, ticarət dövriyyəsi 20 faizdən çox, qeyri-neft ixracı 15 faiz, kənd təsərrüfatı məhsullarının istehsalı 13 faiz artıb.***



Ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulub ki, bunun da böyük hissəsi qeyri-neft sektorunun payına düşür. Bildirilib ki, valyuta ehtiyatlarımız rekord həddə çataraq 49 milyard dollar səviyyəsindədir. Bu ilin 6 ayında əhalinin gəlirləri 6,6 faiz artıb, inflyasiya 2,5 faiz təşkil edib. Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasının dövlət başçısının inkişaf strategiyasının əsas hədəflərindən olduğunu vurğulayan Kollegiyanın sədri Ş.Mustafayev 2019-cu ilin əvvəlində böyük sosial paketin təsdiqləndiyini və bunun 4,2 milyon insanı əhatə etdiyini diqqətə çatdırıb. Bildirilib ki, sosial-iqtisadi sahə ilə bağlı müşavirədə dövlətimizin başçısı qarşıdakı dövr üçün mühüm vəzifələr müəyyənləşdirib. Belə ki, Prezident İlham Əliyev iqtisadi artım üçün yeni mənbələrin axtarılması, qeyri-neft sektorunun inkişafı, istehlak bazarına daim nəzarət olunması, ərzaq təhlükəsizliyinin təmin edilməsi, kənd təsərrüfatına dövlət dəstəyinin davam etdirilməsi, sosial sahənin diqqət mərkəzində saxlanılması, iş yerlərinin yaradılması prosesinin davam etdirilməsi, o cümlədən özəl sektorda daha çox iş yerlərinin yaradılması, Azərbaycanın innovasiyalar, müasir idarəetmə, liberal iqtisadiyyat yolu ilə inkişaf etdirilməsi və sair istiqamətdə tapşırıqlar verib. Prezident İlham Əliyevin tapşırıqlarının icrası istiqamətində İqtisadiyyat Nazirliyi tərəfindən görülən və həyata keçirilməsi nəzərdə tutulan tədbirlər barədə Ş.Mustafayev kollegiya iştirakçılarına geniş məlumat verib. İqtisadiyyatın aparıcı sahələrinin inkişafı istiqamətində görülən işlərdən danışan Ş.Mustafayev bildirib ki, dövlətimizin başçısının sənayeləşmə siyasətinə uyğun olaraq, sənaye parkları və məhəllələrinin yaradılması, rezidentlərin fəaliyyətinin genişləndirilməsi və yeni iştirakçıların cəlb edilməsi istiqamətində işlər davam etdirilir. Sənaye parklarında istehsal olunan məhsullar daxili bazara çıxarılmaqla yanaşı, xarici ölkələrə ixrac olunur. Sənayenin inkişafının əsas prioritetlərdən olduğunu qeyd edən İqtisadiyyat naziri ölkəmizin sənaye potensialının araşdırılmasının, bu istiqamətdə təhlillərin aparılmasının davam etdirilməsi barədə nazirliyin aidiyyəti strukturlarına müvafiq tapşırıqlar verib. Kollegiya iclasında qeyri-neft sənayesinin sürətlə inkişaf etdiyi, toxuculuq, qida, spirtli və spirtsiz içki, avtomobilqayırma, kimya, ağac emalı, mebel istehsalı sahələrində yüksək artıma nail olunduğu diqqətə çatdırılıb, bu sahələrin, eləcə də gön-dəri emalı, balıqçılıq sahələrinin inkişafı istiqamətində görülən işlərin davam etdirilməsi barədə göstərişlər verilib. Əlverişli coğrafi mövqeyi olan Azərbaycanın tranzit potensialının reallaşdırılması Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində mühüm yer tutur. Kollegiya iclasında qeyd edilib ki, bu ilin birinci yarısında da ölkənin nəqliyyat-tranzit imkanlarının genişləndirilməsi istiqamətində tədbirlər davam etdirilib. 2019-cu ilin 6 ayında ölkə ərazisindən 4,1 milyon ton tranzit yük daşınıb. Bu dövr ərzində "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmində 63 faiz artım müşahidə olunub, 131 min ton yük daşınıb. "Şimal-Qərb" və "Şərq-Qərb" nəqliyyat dəhlizləri üzrə daşınan yüklərin həcmində də əhəmiyyətli dərəcədə artım qeydə alınıb. Belə ki, yanvar-iyul aylarında "Şimal-Qərb" nəqliyyat dəhlizi ilə daşınan ümumi tranzit yükün həcmi 70 faiz artaraq 829 min ton təşkil edib. "Şərq-Qərb" nəqliyyat dəhlizi ilə daşınan qeyri-neft məhsullarının həcmi isə 42,8 faiz artaraq 795 min ton olub.

Kollegiya iclasında vurğulanıb ki, bu ilin birinci yarısında özəl sektorun inkişafı, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində sistemli tədbirlər davam etdirilib. 2019-cu ilin altı ayında sahibkarlara 1130 lisenziya verilib ki, bunların da 568-i yeni, 562-si isə müddətsiz lisenziyalarla əvəzetmədən ibarətdir. Ümumilikdə isə İqtisadiyyat Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzləri vasitəsilə 2015-ci il noyabrın 2-dən bu il iyulun 1-dək sahibkarlar 7900-dan çox lisenziya əldə edib. Ötən ilin martında yaradılan "Lisenziyalar və icazələr" portalı vasitəsilə artıq 1100-dən çox elektron lisenziya verilib. İnvestisiya təşviqi sənədinin iqtisadiyyata sərmayələrin cəlb edilməsində əhəmiyyətli mexanizm olduğunu qeyd edən Ş.Mustafayev bildirib ki, bu ilin yanvar-iyul aylarında 449 milyon manatdan çox olan layihələr üzrə 50 investisiya təşviqi sənədi verilib. Layihələrin 58 faizi sənaye, 34 faizi kənd təsərrüfatı, 8 faizi isə turizm sahələrini əhatə edir.

İclasda özəl sektorda həyata keçirilən layihələrə dövlət dəstəyi tədbirlərinin gedişi də müzakirə olunub. Bildirilib ki, özəl sektorun uzunmüddətli və əlverişli şərtlərlə maliyyə resurslarına çıxışının təmin olunması üçün bu ilin birinci yarısında sahibkarlığın güzəştli kreditləşdirilməsi davam etdirilib. 2019-cu ilin altı ayında İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarların maarifləndirilməsi, nümunəvi investisiya layihələrinin təqdim olunması, güzəştli kreditlərin verilməsi ilə bağlı 1500 sahibkarın iştirakı ilə 12 işgüzar forum keçirilib, müvəkkil kredit təşkilatları vasitəsilə ümumi dəyəri 178 milyon manat olan 510 investisiya layihəsinin maliyyələşdirilməsinə 50 milyon manatadək güzəştli kredit verilib. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 1265 yeni iş yerinin açılmasına imkan yaradır. Güzəştli kreditlərin 68 faizi aqrar sektorun, 32 faizi sənaye istehsalı və emalının, eləcə də 44 faizi regionların, 56 faizi isə Bakı qəsəbələrinin payına düşür. Kollegiyanın sədri Ş.Mustafayev regionlarda iş yerlərinin açılması və məşğulluğun təmin olunmasında əhəmiyyətli rol oynayan aqroparkların, iri fermer təsərrüfatlarının yaradılması və mövcud aqroparkların genişləndirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi barədə müvafiq strukturlara göstərişlər verib. Bildirilib ki, kiçik və orta biznesin (KOB) iqtisadiyyatda rolunun artırılması dövlətimizin başçısının sosial-iqtisadi inkişaf strategiyasında əsas prioritetlərdəndir. KOB-lara dəstək məqsədilə yaradılmış Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən 2019-cu ilin yanvar-iyun ayları ərzində mikro, kiçik və orta sahibkarların məlumatlandırılması, onlara müxtəlif xidmətlərin göstərilməsi, yeni dəstək mexanizmlərinin yaradılması, KOB-ların maraqlarının müdafiəsi istiqamətində müvafiq tədbirlər görülüb. Belə ki, bu dövrdə 5 KOB dostu fəaliyyətə başlayıb ki, bununla da ölkə üzrə KOB dostlarının sayı 15-ə çatdırılıb. Sahibkarlara bütün dövlət-biznes ("G2B") və zəruri biznes-biznes ("B2B") xidmətlərin vahid məkanda göstərilməsi məqsədilə hazırda Bakı şəhərində yaradılmaqda olan ilk kiçik və orta biznes evinin (KOB evi) təşkili istiqamətində tədbirlər davam etdirilir. KOBİA-nın təşkilatçılığı ilə mikro, kiçik və orta sahibkarların maarifləndirilməsi üçün Bakıda və ölkə regionlarında təlim, seminar və treninqlər keçirilir. Bu ilin birinci yarısında vergi, gömrük, qida təhlükəsizliyi, kommunal xidmətlərə qoşulmaq və maliyyə resurslarına çıxış imkanlarına dair təşkil olunmuş onlayn maarifləndirmə tədbirlərindən 1500-dən çox sahibkar yararlanıb. Agentlik tərəfindən KOB-ların müxtəlif tədbirlərdə iştirakına, məhsul və xidmətlərini tanıtmasına və satışına, işgüzar əlaqələrinin genişləndirilməsinə dəstək göstərilməsi məqsədilə Bakıda və ölkə regionlarında təşkil olunmuş 5 böyük sərgi və festivalda mikro və kiçik sahibkarların iştirakı təmin edilib. Şahin Mustafayev Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına güzəştli kredit almaq istəyən və alan sahibkarların KOBİA-nın informasiya, məsləhət, maarifləndirmə xidmətlərindən daha çox istifadə etməsinin və bu sahədə birgə əməkdaşlığın əhəmiyyətini diqqətə çatdırıb. İclasda Prezident İlham Əliyevin iş yerlərinin yaradılması prosesinin davam etdirilməsi barədə tapşırıqlarına uyğun olaraq, özəl sektorda daha çox iş yerlərinin yaradılmasının stimullaşdırılması barədə müvafiq struktur bölmələrə konkret göstərişlər verilib. İdxaldan asılılığın azaldılması, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və qeyri-neft məhsulları ixracının genişləndirilməsinin dövlət başçısının sosial-iqtisadi siyasətinin prioritetlərindən olduğunu vurğulayan Ş.Mustafayev qeyd edib ki, hazırda İqtisadiyyat Nazirliyi tərəfindən dövlət başçısının qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı müvafiq Fərman və Sərəncamından irəli gələn tapşırıqların icrası istiqamətində tədbirlər, yerli məhsulların ixracının, rəqabətədavamlı və ixrac potensiallı məhsullar bazasının genişləndirilməsi istiqamətində işlər davam etdirilir.

İxracın stimullaşdırılmasında xüsusi əhəmiyyət kəsb edən ixrac təşviqi mexanizmi çərçivəsində bu ilin ilk altı ayında ixracatçılara 5 milyon manatdan artıq, ümumilikdə isə 2016-cı ilin mart ayından bu günədək 14 milyon manatdan çox ixrac təşviqi ödənilib.

2019-cu ilin birinci yarısında dövlət dəstəyi hesabına xarici ölkələrə 6 ixrac missiyası təşkil edilib, Azərbaycan şirkətləri 7 beynəlxalq sərgidə vahid ölkə stendi ilə qatılıblar. Kollegiya iclasında vurğulanıb ki, ixracla məşğul olan sahibkarlara dəstək tədbirləri davam etdiriləcək. Bildirilib ki, Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə müəyyən edilmiş dövlət orqanlarında daxili idarəetmə proseslərinin elektronlaşdırılması barədə tapşırıqlara uyğun olaraq, İqtisadiyyat Nazirliyi tərəfindən dövlət xidmətlərinin elektron qaydada göstərilməsi və mövcud dövlət xidmətlərinin elektronlaşdırılması ilə bu sahədə şəffaflığın və operativliyin daim diqqətdə saxlanılması təmin edilir. Nazirlik tərəfindən vətəndaşlara 66 elektron xidmət göstərilir və bunların böyük əksəriyyəti artıq "E-hökumət" portalına (www.e-gov.az) inteqrasiya olunub. Hazırda digər elektron xidmətlərin "E-hökumət" portalına inteqrasiya olunması istiqamətində tədbirlər görülür. Dövlət başçısının Azərbaycanın innovasiyalar, müasir idarəetmə yolu ilə inkişafını qarşıya məqsəd kimi qoyduğunu vurğulayan Ş.Mustafayev İqtisadiyyat Nazirliyinin fəaliyyətində müasir informasiya texnologiyalarının və mobil həllərin tətbiqinin daha da genişləndirilməsi barədə müvafiq strukturlara tapşırıqlar verib.

Kollegiyanın sədri Ş.Mustafayev Nazirlər Kabinetinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında keçirilmiş sosial-iqtisadi sahə ilə bağlı müşavirəsində dövlətimizin başçısının çıxışından irəli gələn və İqtisadiyyat Nazirliyi qarşısında qoyulmuş vəzifələrin vaxtında və yüksək səviyyədə icrası üçün nazirliyin struktur bölmələrinə konkret tapşırıqlarını bildirib, bu vəzifələrin icrası ilə bağlı Tədbirlər Planının hazırlanması qərara alınıb. Kollegiya iclasında Prezident İlham Əliyevin sərəncamları ilə təltif olunmuş nazirliyin bir qrup əməkdaşına orden, medallar və onların vəsiqələri təqdim edilib. İqtisadiyyat naziri Ş.Mustafayev verilən yüksək qiymətə görə nazirliyin kollektivi adından dövlətimizin başçısına dərin minnətdarlığını bildirərək, kollektivin göstərilən etimadı daim doğruldacağını söyləyib. İclasda digər cari məsələlər də müzakirə olunub.



# Həngamə qopacaq!

İLHAM

***Ayının min oyunu, bir armudun üstündə olduğu kimi, yaşadığımız həyatda da elə insanlar var ki, min hoqqadan çıxır və ya müxtəlif məzmunlu əlləm-qəlləm əməllər törədir ki, kimsə ona nəsə verəcək. Elə götürək, mütrüblərin kef edib, müxtəlif məzhəkələrlə gündəmə gəlməyə çalışdıqları şou dünyasını, eləcə də, qaz vurub, qazan doldurmaq üçün siyasətə gələn bəzi məxluqları.***

Bir də görürsən ki, Röya, Aygün, Faiq, Şəbnəm, Nadir, Tünzalə, Rəqsanə və bu kimi şou əhlinin yay kimi tarıma çəkilən nümayəndələri sosial şəbəkələrdə və saytlarda ən sərt söz və ifadələrlə bir-birini təhqir edirlər. Elə şeylər deyib, elə sözlər yazdırırlar ki, adamın dəymişi dura-dura, kalı tökülür. Əti ürpəşən, dodaqları büzüşən insanlar da olur. Bu mütrüblərin bir-birini söyüşə və təhqirə qonaq etmələrindən qeyzlənib, evində stəkan-nəlbəki sındıranlar da tapılır. Amma bir iş var ki, qeyzlənmək, haldan çıxmaq bir para əsəblərini cilovlaya bilməyən insanlara qalır. Nədən ki, bir də göürürsən ki, dünən həmkarı haqqında təhqiramiz ifadələr söyləyən mütrüb, bu gün heç nə olmamış kimi, həmin həmkarının evində süfrəsinin başında oturmuş olur. Bu yerdə özünü "ay səni xatakar" deməkdən güclə saxlayırsan.

Siyasət aləmi də eynən mütrüblərin cövlan eylədikləri meydan kimidir. Görürsən ki, dünən, lap elə srağagün AXCP sədri Əli Kərimli Müsavat başqanı Arif Hacılı, ADP sədri Sərdar Cəlaloğlu, "Ümid" sədri İqbal Ağazadə və digərləri ilə yaxın dost və sirdaşdırlar. Birbirilə sövdələşmələr aparır, müxtəlif tədbir və yığıncaqlarda müzakirələr qururlar. Ancaq az sonra, sanki bu məxluqların arasından qara pişik keçir. Səngərlər qazılır və bir-birini topa tuturlar. Bir-biri haqqında elə ifşaedici ittihamlar səsləndirirlər ki, adamın ayağının altından yer qaçır. Statistik məlumatlara istinadən, demək olar ki, Azərbaycan müxalifət başbilənlərinin bir-birilə savaşıb, sonra da heç nə olmamış kimi barışıb, işbirliyinə getmələri Ginneçin rekordlar kitabına düşəsi faktdır. Çünki bu ünsürlər siyasət meydanında olduqları dönəmdən, bu günə qədər dəfələrlə bir-birini söyüb, təhqir edib, sonra da barışıb, hansısa qurumda masa arxasında əyləşiblər. Bunun da adını qoyublar, siyasi situasiyaya uyğun atılan addım. Hazırkı məqamda müxalifət düşərgəsində eyni mövqedən çıxış edən və ya eyni maraqları bölüşən iki partiya tapmaq mümkün deyil. Deyilənə görə, canavarlar bir-birinə etibar etmədiklərindən yatanda, ağız-ağıza yatırlar. Azərbaycan müxalifəti də bir-birilərinə etibar etmədiklərindən, iştirakçısı olmadıqları tədbirlərin qərarlarının icrasında iştirak etmək istəmirlər. Bu baxımdan, müxalif məxluqları dünyada analoqu olmayan sort hesab etmək olar. Amma real fakt ondan ibarətdir ki, bu sort həm yararsız, həm də çürük sortdur.

# Qəbələ dünyanın məşhur turizm mərkəzlərindən birinə çevrilir

***Bütün fəsillərdə gözəlliyə qərq olan Azərbaycan yay fəslində də başqa bir ab-havada olur. Təbiətin bəxş etdiyi bütün yeraltı-yerüstü sərvətləri və iqlimi bu gözəlliyi daha da cəlbedici edir. Təbii ki, ölkəmizdəki, sabitlik, əmin-amanlıq istirahət üçün əlverişli bir məkandır. Turistlər də, məhz təbiəti bənzərsiz, əmin-aman bir ölkədə istirahətlərinin təşkilinə önəm verdikləri üçün seçdikləri məkanlar sırasında Odlar Diyarı kimi tanınan Azərbaycana üz tuturlar. Azərbaycanın Xəzərsahili istirahət və müalicə ocaqları, sanatoriya və kurortları, bir-birindən maraqlı yerli tarixi abidələri dünya turizm həvəskarlarının xidmətindədir.***

Azərbaycanın nəfəsi turistlərdə başqa bir ovqat yaradır desək, fikrimizdə yanılmarıq. Mötəbər tədbirlərə ev sahibliyi edən, eləcə də, dünya ölkələrində ölkəmizlə bağlı xüsusi təqdim olunan reportajlar, yayımlanan verilişlər, yazılı medianın təqdim etdiyi məqalələr ölkəmiz haqqında mövcud olan real mənzərəni əks etdirmiş olur. Təqdim olunan materiallarda ölkəmizin qədim şəhərlərindən tutmuş bölgələrinə, ucqar kəndlərinədək uzanan rahat yolları, səliqəli hotelləri, çeşidli təamları, milli adət-ənənələri, yerli əhalinin mehribanlığı və s. amillər müxtəlif dinə, irqə məxsus insanlarda ölkəmiz haqqında olan təsəvvürləri daha da dərinləşdirmiş olur. Xüsusi ilə də, Azərbaycan mədəniyyəti, tarixi, hər daşına həkk olunan minilliklərin sorağı ölkəmizə marağı birə-beş artırmış olur. Təhlükəsizliyin yüksək səviyyədə təmin olunduğu bir məkanda istirahət etmək niyyətində olanlar ölkəmizə üz tutduqları üçün səhv seçim etmədiklərini dərk edirlər. İlbəil turistlərin sayında artımın baş verməsi də, məhz ölkəmizin bu və digər üstünlüklərə malik olmasına söykənir.



Xüsusi olaraq, vurğulayaq ki, turizm ölkəmizin iqtisadi inkişafında böyük perspektivlər açmasına da real zəmin yaradır. Bu məsələyə kompleks şəkildə yanaşan Azərbaycan Prezidenti İlham Əliyevin fərman və sərəncamlarına əsasən, ölkəmizdə turizm sənayesi həm daxili, həm də xarici qonaqları qəbul etmək üçün ildən-ilə inkişaf edir. Qeyd edək ki, turizm iqtisadiyyatımızın əlverişli hissəsi olmaqla, xırda və orta sahibkarlıq üçün də möhkəm baza yaradır, rayonda turizmin inkişafı yeni iş yerlərinin açılmasına kömək edir, regionun infrastrukturunun formalaşdırılması üçün əlverişli şərait yaranır. Bütün bunlar, əlbəttə, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Proqramının və yoxsulluğun aradan qaldırılması Proqramının əsas müddəalarına cavab verir.

## "AZƏRBAYCANIN İSVEÇRƏSİ"

Azərbaycanın belə gözəl məkanları sırasında Qəbələnin öz yeri və payı var. Bu diyarın təbiəti, uca dağları, yaşıl meşələri, təmiz havası, çayları, gölləri, şəlalələri, mənzərəli yerləri, həqiqətən də, istirahət üçün ən əlverişli məkanlar sırasındadır. Nadir təbii iqlim şəraiti, mineral bulaqları, tarixi İpək Yolunun üstündə yerləşən, Qədim Qafqaz Albaniyasının paytaxtı olan Qəbələ tarixi və müasirliyi özündə birləşdirir. Bu yerlərin təbii gözəlliyini yüksək qiymətləndirən Ümummilli Lider Heydər Əliyev Qəbələni "Azərbaycanın İsveçrəsi" adlandırıb.

Qəbələnin təbii sərvətləri sistemində onun mineral suları sırasında olan - mineral bulağı Qəmərvan kəndindən 5 km şimalda, Bum çayı dərəsində, 1388 metr hündürlükdə səthə çıxan termal-mineral sudur. Bulaq kürdlü və dəmirli birləşmələrlə zəngindir. Suyunun kimyəvi və fiziki xassələrinə, müalicəvi əhəmiyyətinə görə, Qəmərvan mineral bulağı Qərbi Avropada məşhur olan Kuldur mineral suyu ilə analoq təşkil edir.

## BU MƏKANIN HƏR YERİNDƏN ƏSRLƏRİN SƏSİ GƏLİR

Azərbaycanın ən gözəl məkanlarından biri olan Qəbələ həm də çoxlu sayda tarixi abidələri, maddi-mədəniyyət nümunələri ilə məşhurdur. Bu tarixi abidələr Qəbələnin tarixinin min illər bundan əvvəllərə gedib çıxdığını göstərir. Bu füsunkar yurd yerinin qədim tarixi, adət-ənənələri, xalq sənəti nümunələri çox zəngindir. Şanlı keçmişə malik və yüz illər boyu Qafqaz Albaniyasının paytaxtı olmuş Qəbələnin hansı daşını tərpətsən, haraya ayaq bassan orada min illər bundan əvvəlki tariximizin izlərini görmək olar. Buranın hər bir daşından əsrlərin səsi eşidilir. Təbii ki, bu məkanda tarix və mədəniyyət abidələrinin say baxımından çox olması turistlərin axınında önəmli rol oynayır. Əmili kəndində IV-VIII əsrlərə aid alban məbədi, Bum kəndində XIX əsrə aid məscid, Bayramkoxa kəndində IX-XIV əsrlərə aid Ustacan qalası, Şəfili kəndində XVII əsrə aid məqbərə, Həmzəli kəndində XVI əsrə aid Şıxbaba piri, Komrad dağının zirvəsindəki Komrad piri, Nic kəndində Hacı Qərib məscidi və s. xarici turistlərin Qəbələyə səfəri zamanı ən çox ziyarət edilən yerlərdir. Bu tarixi məkanların adını vurğulayarkən, Nic kəndinin yaxınlığında Yalovlu dağda eramızdan əvvəl III-I əsrlərdə insan məskənləri olduğunu da qeyd etməliyik. Mənbələrdə göstərilir ki, bu ərazidə dəmir bıçaqlar, xəncərlər, qılınclar, tuncdan hazırlanmış üzüklər, qızıl sırğalar, dəyirman daşları və başqa əşyalar aşkar edilib.

## TURİZM-İSTİRAHƏT MƏRKƏZLƏRİ DAĞ, ÇAY VƏ MEŞƏ ZOLAQLARI İLƏ ƏHATƏ OLUNUB

Müasirliyi ilə tarixi özündə birləşdirən Qəbələdəki müasir tikililər ona başqa bir görkəm verib. Xüsusilə də, turistlərin müasir standarlara cavab verən məkanlarda istirahəti üçün tikilən otellər diqqəti cəlb edir. Bu turizm-istirahət mərkəzləri dağ, çay və meşə zolaqları ilə əhatə olunub. Hər bir obyektdə istirahət üçün gözəl şərait yaradılıb. Geniş ərazilərdə atla gəzinti, meşə gəzintisi, balıq ovu, göldə qayıqla gəzinti, üzgüçülük hovuzları, buz üstdə konki meydançası, alpinizm məşğələləri hər bir turisti maraqlandırır. Prezident İlham Əliyev Qəbələ rayonuna səfərləri zamanı yeni beşulduzlu otel və istirahət mərkəzlərinin açılışında iştirak edir, turizmin daha da inkişafı üçün dəyərli tövsiyələrini verir. Dövlət başçısı çıxışlarının birində belə deyib: "Qəbələ, sözün əsl mənasında, sürətlə inkişaf edir, böyük quruculuq-abadlıq işləri aparılır. Burada turizm infrastrukturunun inkişafı üçün çox böyük işlər görülür və Qəbələ dünya miqyasında turizm mərkəzlərindən birinə çevrilməlidir". "Qafqaz Resort" Hoteli öz cazibədar təbiəti, Şərqə məxsus qonaqpərvərliyi ilə regionun ən üstünlük verilən otellərindən biridir. 2008-ci il ildə ölkə Prezidenti İlham Əliyev tərəfindən rəsmi açılışı olan otel Böyük Qafqaz sıra dağlarının ətəyində, Dəmiraparan çayının sahilində yerləşir. "Qafqaz Riverside" Hoteli də Qəbələnin Dəmiraparan çayı sahilindədir. 2009-cu ildə ölkə Prezidenti İlham Əliyevin iştirakı ilə istifadəyə verilən otel müasir standartlara uyğun qurulub. Böyük Qafqaz sıra dağlarının ətəyində yerləşən "Qafqaz Sport", "Qafqaz Karvansaray" və s. bu kimi otellərdə turistlərin istirahəti üçün hər bir şərait mövcuddur. Qəbələ rayonunda mövcud olan turizm obyektləri hər il nüfuzlu sərgilərdə, dünya səviyyəli ixtisaslaşdırılmış yarmarkalarda iştirak edir və bazarda özünün turizm imkanlarını nümayiş etdirir.

## "TUFAN" DAĞ-XİZƏK YAY-QIŞ İSTİRAHƏT KOMPLEKSİ GÜN ƏRZİNDƏ ÜÇ MİN NƏFƏRƏ XİDMƏT GÖSTƏRMƏK İMKANINA MALİKDİR

Turizm məkanlarından söz açarkən, əlbəttə ki, "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksinin qeyd etməmək mümkün deyildi. Azərbaycan isti iqlim qurşağında yerləşməsinə baxmayaraq, nadir ölkələrdəndir ki, ən yüksək dünya standartlarına cavab verən nəhəng qış turizm infrastrukturları və kompleksləri yaradır. Belə ki, turizm sahəsində məqsədli şəkildə həyata keçirilən layihələr qış turizminin inkişafına da yeni yollar açdı. "Şahdağ" Qış-Yay Turizm Kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafında uğurlara gətirib çıxardı. Qış turizminin inkişaf etdirilməsi ilə bağlı atılan növbəti addımlardan Qəbələdəki "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksi oldu. Bu iri kompleksin inşası göstərir ki, Azərbaycanda turizmin inkişafına və bu sahədə infrastrukturun yaradılmasına xüsusi diqqət göstərilir. "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksində nəhəng infrastruktur yaradılıb. Ərazidə insanların rahat istirahəti üçün hər cür şəraitə malik infrastrukturun, o cümlədən, mehmanxana, ofislər, uşaqlar üçün istirahət guşəsi və digər müvafiq obyektlər yaradılıb. Burada turistlərin istirahətinin təşkili üçün hər cür şəraiti olan restoranlar da yaradılıb. Ümumiyyətlə, bu nəhəng istirahət məkanı ilin bütün fəsillərində turistlərə kanat gəzintisinə,

# Qəbələ dünyanın məşhur turizm mərkəzlərindən birinə çevrilir



qış mövsümündə xizəklə sürüşməyə, xizəkçilik məktəbindən, otel və digər xidmətlərdən istifadə etməyə imkan verir. Kompleksin əhəmiyyətini artıran mühüm amillərdən biri də burada turistlərin trassa sistemini özlərinə uyğun seçmək imkanlarının olmasıdır. Bütün dağ-xizək trassası süni qar yaratma generasiya sistemi ilə təchiz edilib. Bütünlükdə, "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksi gün ərzində üç min nəfərə xidmət göstərmək imkanına malikdir. Yaradılan şərait, bir daha təsdiqləyir ki, artıq turistlər ilin bütün fəsillərində Qəbələyə səfər edə bilirlər. Yay mövsümündə minlərlə qonağı qarşılayan bu məkan qışda da turistləri ən gözəl istirahət mərkəzinə çevrilib.

Rayonda turizm sektorunun inkişafı üçün ixtisaslı kadrlar hazırlayan Qəbələ Rayon Turizm və Otelçilik üzrə Peşə Tədrisi Mərkəzi respublikamızın müxtəlif bölgələrindəki turizm obyektlərinin də kadrla təmin edilməsi istiqamətində uğurla fəaliyyət göstərir. Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir ki, bu gün ölkəmizin bütün bölgələri, o cümlədən, Qəbələ sürətlə inkişaf edir. Rayonun sosial-iqtisadi inkişafı və zəngin turizm potensialı yaxın illərdə Qəbələnin dünyanın məşhur turizm mərkəzlərindən birinə çevriləcəyinə zəmin yaradır.

## RAYON TURİZMİNİN İNKİŞAF DİNAMİKASININ YÜKSƏLƏN TEMPLƏ DAVAM ETMƏSİNƏ ƏSAS OLAN AMİLLƏR

2010-cu ildə Qəbələdə ikimərtəbəli avtovağzal binası açılıb. Qəbələdə nəqliyyat sahəsinin inkişafına ciddi təsir göstərən avtovağzaldan rayonun bütün kəndlərinə marşrutlar işləyir. Həmçinin, ölkədaxili istiqamətlərdə və Türkiyə, Rusiya, eyni zamanda və MDB-nin digər dövlətlərinə avtobus reysləri fəaliyyət göstərir. 2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə Qəbələ rayonunda beynəlxalq standartlara cavab verən Qəbələ Beynəlxalq Aeroportu istifadəyə verilib. Aeroportda aviasiya təhlükəsizliyi, sərhəd və gömrük xidmətlərinin əməkdaşlarının rahat işləmələri üçün hərtərəfli şərait yaradılıb. Terminalda ən müasir təhlükəsizlik sistemləri quraşdırılıb. Sərnişinlərin qeydiyyatı və VIP salonu da ən son avadanlıqla təchiz olunub.

Qəbələnin son illər bir sıra beynəlxalq mədəni-kütləvi tədbirlərə ev sahibliyi etməsi də bu rayona işgüzar səfərə və istirahətə gələnlərin sayını dəfələrlə artırmışdır. Artıq ənənə halını almış və hər ilin yay aylarında keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalında dünyanın müxtəlif ölkələrindən dünya şöhrətli musiqiçilər iştirak edirlər. Festivalda səsləndirilən klassik musiqiləri canlı dinləmək üçün yüzlərlə yerli və xarici musiqi həvəskarları Qəbələyə təşrif buyururlar. Qonaqlar musiqi bayramında iştirak etməklə yanaşı, rayonun müasir turizm obyektlərində dincəlir, tarixi abidələri ilə tanış olur və əsrarəngiz təbiətini seyr edirlər. Rayonda turizmin inkişaf dinamikası yüksələn templə davam edir.

## NİCİN TİMSALINDA AZƏRBAYCANDA MÖVCUD OLAN MULTİKULTURALİZMİ GÖRMƏMƏK MÜMKÜN DEYİLDİ

Qəbələ həm də müxtəlif xalqların bir məkanda yaşadığı yerdir. Bura gələn turistlər multikulturalizmin Azərbaycanda yaşadığını və bu yaşam tərzinin sülh və dostluq üçün unikal model olduğunu öz gözləriylə görürlər. Azərbaycan xalqına bugünkü rifahı bəxş etmiş və ölkəmizdəki multikultural mühitin siyasi bünövrəsini yaratmış Ulu Öndər Heydər Əliyevin siyasətini ləyaqətlə davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev sülh və əmin-amanlığa, xalqlar arasında dostluğun möhkəmlənməsinə töhfələr verir. Cənab Prezidentin Sərəncamı ilə 2016-cı ili Azərbaycanda "Multikulturalizm İli" elan edilməsi sülhə, şəfqətə və barışa dünya miqyasında bir çağırış oldu. Fərqli dinin, fərqli etnosun yaşadığı Nicin timsalında Azərbaycanda mövcud olan multikulturalizmi görməmək mümkün deyildi. Fərqli dinin, fərqli etnosun yaşadığı Qəbələ rayonunun Nic kəndi udilərin ən iri yaşayış məskənidir. Azərbaycanın qədim yerli xalqlarından biri olan udilər haqqında hələ Herodot, Plini və Strabonun əsərlərində məlumat verilmişdir. Dünyanın etnik xəritəsində udi adlı etnos bu gün, əsasən, Azərbaycan ərazisində mövcuddur. Udilər Qafqazın qədim sakinlərindəndir, dilləri Qafqaz dilləri ailəsinin ləzgi yarımqrupuna məxsus olub, çoxlu qədim ünsürləri özündə qoruyub-saxlaya bilmişdir. Tarixən Günəşə, Aya sitayiş edən udilər IV əsrin əvvəllərində xristianlığı qəbul etmiş və bu günə kimi dinini saxlamışlar. Nic qəsəbəsindəki Alban-Udi xristian kilsəsi bura gələn xarici turistləri təəccübləndirməyə bilməz. Kilsədə səslənən arqan musiqisi insanları riqqətə gətirir. Qeyd edək ki, Qəbələ rayonunun Nic qəsəbəsində yerləşən "Çotari" Alban-Udi kilsəsi yerli sakinlərin vəsaiti hesabına 1723-cü ildə inşa edilib. Kilsənin adı qəsəbədəki Çotari məhəlləsinin adından götürülüb. Sovet hakimiyyəti illərində fındıq anbarı kimi fəaliyyət göstərmiş kilsədə 2003-cü ildə əsaslı bərpa və yenidənqurma işlərinə başlanılmış, 2006-cı ildə dindarların istifadəsinə verilmişdir.

Bu gün Qəbələdə udi xalq rəqslərinin sədaları altında keçirilən toy-düyün, müsəlman ölkəsindəki bir xristian məbədində bağlanan mənəvi ittifaq əsl tolerant mühitin ölkəmizdə olduğunun bir göstəricisidir. Dünyanın belə bir çətin zamanında yaşamağımıza baxmayaraq, Azərbaycanda multikulturalizm yaşayır. Əbəs yerə deyilmir ki, Azərbaycan dünyada tolerantlığın və multikulturalizmin paytaxtıdır.

## TURİSTLƏRİN İSTİRAHƏT ÜÇÜN VERDİKLƏRİ QƏRAR: QƏBƏLƏYƏ SƏFƏR

Qədim Qəbələnin tarixi məkanları, gözəl təbiəti və müasir istirahət mərkəzləri turistləri heyran edir. Bu gün Qəbələyə gələn turistlərin sayı artmaqdadır. Mövcud turizm obyektlərində gün ərzində 2500 qonaq qarşılamaq, onlara yüksək səviyyədə xidmət göstərmək mümkündür. 2009-cu ildə 29 min 558, 2010-cu ildə 30 min 450, 2011-ci ildə 39 min 960, 2012-ci ildə 42 min 545, 2013-cü ildə isə 45 min 675 turist Qəbələ rayonuna gəlmişdir. 2014-cü ildə Qəbələ rayonuna gələn xarici və yerli turistlərin sayı 49 min 969 nəfər olmuşdur. Bu da 2013-cü ildə rayona gələn turistlərin sayından 4294 nəfər çoxdur. 2015-ci ildə isə Qəbələyə 80 min 200 nəfər yerli və xarici turist gəlmişdi. 2016-cı ildə gələn turistlərin sayı 99 min 700 nəfər olub. 2017-ci ilin 8 ayında Qəbələyə 218 min 118 turist gəlib. İstirahətə gələnlərin 89 min 217 nəfəri yerli, 128 min 901 nəfəri əcnəbi turistlərdir. Turistlərin əksəriyyəti Rusiya, Türkiyə, Böyük Britaniya, İraq, Ukrayna, Latviya, İran, Birləşmiş Ərəb Əmirliyi, Gürcüstan, Səudiyyə Ərəbistanı, Qətər, İsrail, Pakistan və Misirdən olub. 2018-ci ildə isə təkcə yay ərizində 277 min 283 nəfər turist səfər etmişdi. Göründüyü kimi, Qəbələni ən gözəl və rahat məkan kimi seçib istirahət etmək istəyən turistlərin sayı ilbəil artır.

**Nəzakət ƏLƏDDİNQIZI**

---



**Təhmasib Novruzov**

## Müxalifət yeni rəng axtarışında

***Bir zamanlar Gürcüstanda inqilab baş verdi. "Qızılgül" adı ilə məşhur olan bu inqilabdan sonra bizim müxalifətimiz başladı "Qızılgül" plantasiyası salmağa. Bütün digər sahələrdə olduğu kimi, burda da başarısız oldular və əkdikləri "şitillər" quruyub yapışdı torpağa.***

Sonra Ukraynada başqa bir rəngli inqilab - narıncı inqilab baş verdi. Bizimkilər yığışdılar bir yerə, ukraynalılardan fərqli bir rənglə onların "konspekti" əsasında inqilab eləmək istədilər. Di gəl ki, yenə alınmadı. Bütün iclaslarını həsr elədilər rəng seçiminə. Əli dedi mavi olsun, Pənah dedi göy olsun, Cəmil dedi qırmızı və ilaxır. Xülasə, rəng üstündə dava eləyib, dalaşıb-söyüşüb dağıldılar. Fransızlar "sarı jiletli" hərəkatına başladılar, bunlar da qara jiletə bürünüb, indi də firəngləri yamsılamaq istədilər. Hətta düşmən Ermənistanda baş verən inqilabdan necə vəcdə gəldilərsə, utanmaz-utanmaz özlərini geylərin nümayəndəsi olan Paşinyana bənzətməyə çalışdılar. Bundan da bir şey çıxmadı. İndi də ... Vallah, mən bu sosial şəbəkədə yayımlanan anti-Azərbaycan yönümlü televiziyalara baxmağa heç həvəskar deyiləm. Amma Azərbaycan vətəndaşı olaraq, hərdən interneti qurdalayıb, daxil oluram onların saytlarına ki, hər nə qədər olmasa, bizim ölkənin müxalifətidir, bəlkə bir ağıllı söz çıxar ağızlarından. Noolar düşmənlə əlbir olanda, bəlkə elə düşməndən oğurladığı bir məlumatı mesaj verər ökəsinin vətəndaşlarına. Amma hardan? Yenə köhnə hamam, köhnə tas! Yox, yanıldım, hamam köhnə olsa da, tas təzələnib. Ən son "osmanqızı.tv" adlanan şərşəbədə kanalında Ə.Kərimlinin çıxışını izləyəndən sonra bu qənaətə gəldim. İzlədim deyəndə ki, sərsəmləmələrinə qulaq asdım. Heyif itirdiyim bir saatdan. Bəli, bəli, düz bir saat boş-boş çərənlədi, buna heyif deməyəsən, nə deyəsən? İndi də Moskvada son vaxtlar başlanan, mitinqlərlə, yürüşlərlə müşahidə olunan hərəkatdan danışıb, özlərini onlarla müqayisə edir və xalqa müraciət edir ki, "davay, sroçno za Moskva!" Ona qulaq asa-asa, 1990-cı il 20 Yanvar hadisəsindən az sonra yadıma SSRİ-nin o zamankı nüfuzlu mətbuatlarından olan "Komsomolskaya Pravda" qəzetində, o zamanın fəal sovet komsomolçusu, S.M.Kirov adına ADU-nun tələbəsi Əli Kərimovun sayıqlaması düşdü. O zaman bu komsomol fəalı həmin hadisələrə görə Azərbaycan xalqını günahlandırıb, Moskvaya haqq qazandırmışdı. Bu isə, açıq-aydın o demək idi ki, bu adam Moskvanın təlimatı ilə fəaliyyət göstərirdi. İndiki çıxışından da gəlinən nəticə o idi ki, həmin komsomol Əli - yəni Əli Kərimli həmin ampluasındadı və köhnə ağalarının, bolşeviklərin ardınca getmək zorundadı. Sirr deyil ki, Rusiyada başlanan indiki hərəkatın əsas hərəkətverici qüvvəsi Rusiya Kommunist Partiyası, yəni rus bolşevikləridir. (Görünür, Qərbdəki yeni ağalarından istədiyini artıq ala bilmir və yenidən üzünü çevirib köhnə ağalarına). O bolşeviklər ki, 1920-ci ldə Azərbaycana ordu yeridib, Azərbaycan Xalq Cümhuriyyətini süquta uğratdı. Azərbaycan ərazilərinin böyük bir hissəsini alıb verdi Azərbaycan torpaqlarında özünə dövlət qurmuş Ermənistana. O bolşeviklər ki, 1923-cü ildə DQMV-ni yaratmaqla ölkəmizin içində irinləyən yaranın bünövrəsini qoydu və Ermənistanda yaşayan bütün azərbaycanlıların dədə-baba yurdlarından çıxarılmasını təmin etdi. O bolşeviklər ki, 1937-ci ildə Azərbaycanın minlərlə ziyalısını pantürkist adı ilə məhv etdi. Nəhayət, o bolşeviklər ki, 1988-ci ildən ermənilərlə birlikdə Azərbaycan xalqına qarşı həyata keçirilən əsl soyqırımın bünövrəsini qoydular. Həmin çıxışda bir maraqlı məqama da diqqət çəkməyə bilmirəm. Ə.Kərimlinin həmin çıxışı Ermənistanın baş naziri Paşinyanın Xankəndidə keçirilən mitinqdəki məlum bəyanatı ilə eyni günə təsadüf (bəlkə də planlaşdırılmışdı) edirdi. Ermənistan rəhbərinin dediyi sözlərə görə, ona heç bir qınayıcı söz belə deməyən ana müxalifət "lideri" Azərbaycan hakimiyyətinin ünvanına ağzına gələni dedi. Anlamaq olmur ki, bəlkə bizim hakimiyyət Paşinyana deyib ki, Qarabağı Ermənistan ərazisi adlandırsın? Bu, sadəcə, siyasi səbatsızlıq deyil, bu, həm də öz ölkəsinə və öz dövlətinə qarşı yönəldilmiş xəyanətdir. Zavallı o qədər ağalarının tapşırığına aludə olub ki, ələ düşən bu siyasi imkanı dəyərləndirməyi, xalqın gözündə, imic xatirinə də olsa, Paşinyanın ünvanına heç bir kəskin ifadə işlətmir. Bu yerdə ataların bir sözü ilə yazıma nöqtə qoyuram: görünən dağa nə bələdçi?

# İqtisadi sahədə yeni hədəflərə doğru

***Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu və iqtisadi islahatlar nəticəsində ölkəmizdə siyasi sabitlik möhkəmlənməklə yanaşı, iqtisadi inkişaf dinamikası davam etməkdədir. Ölkə başçısı tərəfindən həyata keçirilən məqsədyönlü və mükəmməl siyasətin nəticəsidir ki, cari ilin ötən 6 ayı ərzində ölkəmizin sosial-iqtisadi inkişafı davam edib, iqtisadi siyasətin prioritet istiqamətləri olan makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, qeyri-neft istehsalı və ixracının həcminin artması, regionların tarazlı inkişafı, əlverişli biznes və investisiya mühitinin formalaşdırılması və digər sahələrdə əhəmiyyətli irəliləyişlərə nail olunub, əhalinin rifah halının daha da yüksəldilməsi təmin edilib. Dövlət başçısı yanında iyulun 31-də sosial-iqtisadi sahə ilə bağlı keçirilmiş müşavirədə də qeyd olunduğu kimi iqtisadiyyatımız bu ilin altı ayında 2,4 faiz, qeyri-neft sektorumuz 3,2 faiz artıb. Son 6 ayda iqtisadi sahədə əldə etdiyimiz uğurları bir də ekspertlərin dilindən eşidək.***

## "6 ayda Azərbaycan iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulub"



Milli Məclisin deputatı Azər Badamov bildirib ki, Azərbaycan iqtisadiyyatı müəyyən olunmuş proqramlar üzrə inkişaf edir: "Ötən 6 ayda iqtisadi sahədə ən mühüm nailiyyətlərdən biri kənd təsərrüfatında rekord göstəricinin əldə edilməsidir. Kənd təsərrüfatı bu ilin altı ayında 13 faiz artıb, bitkiçilikdə 25 faiz artım əldə olunub. Bu, onu göstərir ki, qoyulan investisiyalar, aparılan islahatlar, verilən subsidiyalar, kənd təsərrüfatına elmi yanaşma öz nəticəsini verməkdədir".

Cari ilin birinci yarısında ticarət dövriyyəsinin 20 faizdən çox artdığını deyən deputat söyləyib ki, altı ayda ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulub: "Bu sərmayənin böyük hissəsi qeyri-neft sektoruna qoyulan sərmayədir. İnflyasiya cəmi 2,5 faizdir. Ötən 6 ayda əhalinin gəlirləri 6,6 faiz artıb, inflyasiya 2 faiz təşkil edib. Yəni əhalinin real gəlirləri inflyasiyanı 3 dəfə üstələyib. Ölkəmizdə həyata keçirilən düşünülmüş iqtisadi siyasət maliyyə-büdcə-valyuta ehtiyatlarının davamlı şəkildə artmasını təmin etməkdədir. Valyuta ehtiyatlarımız rekord həddə - 49 milyard dollara çatıb. Bu gün əksər ölkələrin valyuta rezervləri azaldığı halda, Azərbaycanın valyuta ehtiyatları artır. Strateji ehtiyatların artması Azərbaycanda maliyyə sabitliyinin və iqtisadi inkişafın təmin edilməsinə mühüm rol oynayır. Valyuta ehtiyatlarının artması güclü sabitlik potensialını möhkəmləndirir. Valyuta ehtiyatlarının yüksək artım tempi güclü iqtisadi təhlükəsizlik yastığının təmin edilməsində də xüsusi əhəmiyyət kəsb edir. Cari ildə yürüdülən uğurlu siyasət Azərbaycanın xarici borcunun azalmasına da səbəb olubdur. Hazırda ölkəmizin xarici borcu ümumi daxili məhsulun 19 faizini təşkil edir. Dövlət başçısının tapşırığına əsasən xarici borcun yaxın illərdə daha da azaldılması qarşıya vəzifə kimi qoyulub. Bu məsələ ilə bağlı müvafiq proqram hazırlanıb və həyata keçirilməkdədir".






## "Ölkə iqtisadiyyatı 2.4 faiz artıb"

İqtisadçı ekspert Vüqar Bayramov isə söyləyib ki, bu ilin birinci yarısında Azərbaycan müəyyənləşdirdiyi iqtisadi prioritetlərə nail ola bilib: "Ötən 6 ay müddətində ölkə iqtisadiyyatı 2.4 faiz artıb. Qeyri-neft sektorunun ÜDM-də artan faizi 3.2-dir".

Qeyri-neft sənayesində artım 15,7 faiz olduğunu deyən iqtisadçı söyləyib ki, bu, nəticə etibarı ilə ÜDM-dəki artımın daha çox qeyri-neft sektorundakı



artım hesabına formalaşması anlamına gəlir.

Onun sözlərinə görə, son 6 ayın göstəricilərə baxdıqda bir daha məlum olur ki, qeyri-neft sektorunun ümumi iqtisadi artıma təsir imkanları daha genişdir: "Bu da ilin birinci yarısının pozitiv cəhətlərindəndir. Çünki prioritetlərimizdən biri məhz qeyri-neft sektorunun ümumi artımda payını artırmaqdan ibarət idi. Bu, qeyri-neft sənayesinin ÜDM-dəki daha dayanıqlı olması baxımından artım tempinin formalaşmasına imkan verir ".

## "Dövlət rezervlərini artırmışıq"

V. Bayramov bildirib ki, ötən ilin 6 ayında iqtisadi göstəricilərlə əlaqədar mühüm məqamlardan biri dövlət rezervləri ilə bağlıdır: "Belə ki, burada 4 milyard dollara yaxın artım qeydə alınıb. Bu da əlbəttə ki, Prezident İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı keçirilən müşavirədə də qeyd olunduğu kimi xərcləmələrin konsolidasiya olunması, səmərəlilik prinsipinin həyata keçirilməsi büdcədə kəskin xərcləmələrə gedilməməsi, eləcə də Dövlət Neft Fondundan büdcəyə transferlərin optimallaşdırılması ilə bağlıdır. Eyni zamanda neftin dünya bazarında da qiymətin proqnozlaşdırılandan daha yüksək oldu. Bildiyimiz kimi, bu ilin büdcəsində neftin qiyməti 60 dollar, lakin satış qiyməti 65 dollardan çox oldu. Bu baxımdan valyuta yığımı daha geniş olub ki, bunun da nəticəsində Azərbaycan 6 ay müddətində dövlət rezervlərini artırmaq imkanına malik olub".

Qeyd olunanlar bir daha təsdiq edir ki, Azərbaycan iqtisadi sahədə yeni hədəflərə doğru irəliləyir. Ölkəmiz dünyada yaşanan qlobal çətinliklərin fonunda öz təhlükəsizliyini təmin etmək üçün ilk növbədə daxili resurslara istinad edir.

***Nailə Məhərrəmova***

## Tibb sahəsində çalışan bu işçilərin maaşları artırıldı



Azərbaycanda tibb sahəsində bir neçə qurumun işçilərinin əməkhaqları artırılıb. SİA-nın məlumatına görə, bununla bağlı Baş nazir Novruz Məmmədov "Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşları haqqında" qərara dəyişiklik edib. Dəyişikliyə əsasən, Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin və Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzinin işçilərinin aylıq vəzifə maaşları artırılıb. Qeyd edək ki, dəyişiklik "Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019- cu il 18 iyun tarixli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə edilib. Qərar sentyabr ayının 1-dən qüvvəyə minəcək.

## "Azərbaycan Sərhəd Mühafizəsi: dünən, bu gün və sabah"

Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyinə həsr olunmuş silsilə bayram tədbirləri davam edir. SİA-nın verdiyi məlumata görə, bu gün Dənizkənarı Milli Parkda Dövlət Bayraq Meydanının yaxınlığında "Azərbaycan Sərhəd Mühafizəsi: dünən, bu gün və sabah" mövzusunda keçirilən tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında Azərbaycan Sərhəd Mühafizəsinin son illərdə inkişafı və əldə etdiyi xidməti nailiyyətlər haqqında ictimaiyyət geniş məlumatlandırılır, şəhər sakinlərinə, xüsusən də gənclərə və yeniyetmələrə Azərbaycan Respublikasının dövlət sərhədləri, sərhəd mühafizə tarixi, dövlət sərhədinin mühafizəsində tətbiq olunan hərbi və döyüş texnikası, silahlar və xüsusi sərhəd mühafizə avadanlığı barədə ətraflı məlumatlar verilir.

Tədbirdə DSX-nin döyüş və zirehli texnikası, uçuş vasitələri, pilotsuz uçan aparatları, sərhəd gözətçi gəmiləri, ən müasir silah və sursatları, sərhəd mühafizə və digər xüsusi hərbi avadanlıqlar, dövlət sərhədinin mühafizəsində istifadə olunan mühəndis-texniki qurğular, sərhəd nəzarəti texnikası nümayiş olunur. İştirakçılara hərbi və döyüş texnikası ilə bilavasitə tanış olmaq, onların üzərində şəkil çəkdirmək, səhra mətbəxində əsgər yeməyindən dadmaq, interaktiv tirdə atəş açmaq, qısa müddət ərzində özlərini sərhədçi kimi hiss etmələri üçün şərait yaradılıb.

## "Erməni əsgəri Azərbaycana keçərək işgəncələrdən canını qurtarıb"

"Erməni əsgərinin ağ bayraqla Azərbaycan tərəfinə keçməsi ilk növbədə Ermənistan siyasi rəhbərliyinin orduya, əsgərə hərbçiyə olan münasibətindən xəbər verir. Bu fakt bir daha sübut etdi ki, düşmən ölkədə ordu acınacaqlı durumdadır". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Elman Məmmədov deyib. O bildirib ki, düşmən ölkədə separatçılarla hakimiyyət arasında gedən boğuşma orduya da sirayət edir. Deputat söyləyib ki, uzun illərdir haqqında miflər yaradılan Ermənistan ordusu kriminal, cinayətkar aləmə çevrilib: "Orduda zəiflərin güclülər tərəfindən əzilməsi, döyülməsi, təhqir olunması, hüquqlarının pozulması, alçaldılması halları baş alıb gedir. Ermənistan ordusunun təminatının hansı səviyyədə olduğu Azərbaycan tərəfində keçən əsgərin libasından açıq şəkildə görünür. Əsgərin bədənindəki müxtəlif yaralar, xəsarətlər ona uzun müddət verilən işgəncənin göstəricisidir". E.Məmmədov qeyd edib ki, bütün bunlar Ermənistan ordusunun döyüş səviyyəsi və təminatının aşağı və yarıtmaz vəziyyətdə olduğunu deməyə əsas verir: "Bu gün Azərbaycan Ermənistanla müharibə vəziyyətindədir. Amma buna baxmayaraq düşmən tərəfin əsgəri dözülməz vəziyyətdən bezərək Azərbaycan tərəfinə pənah gətirib. Əsgər özünü Azərbaycan tərəfinin dəfələrlə göstərdiyi humanistliyə etibar edərək qaçıb canını qurtarıb. O tək deyil. İmkan olsa erməni əsgərlərinin çoxu bu hərəkəti edər". "Paşinyandan fərqli olaraq ağlı yerində olan erməni siyasətçiləri, ziyalıları, cəmiyyətin düzgün nəticə çıxarmağı bacaran üzvləri fikirləşməlidirlər ki, dünyanın 50 güclü ordu sırasında olan Azərbaycan ordusu qarşısında tab gətirmək mümkün deyil. Nə qədər ki gec deyil, onlar bundan nəticə çıxaramalı, torpaqlarımızı işğaldan azad etməlidirlər. Əks halda, yaxın zamanda Azərbaycan ordusunun bir neçə güclü həmləsi nəticəsində onlar darmadağın edilərək torpaqlarımızdan çıxarılacaqlar" - deyə, deputat vurğulayıb. E. Məmmədov əlavə edib ki, gələcəkdə Ermənistan dövlətinin mövcud olması üçün qonşularla düzgün, normal siyasət həyata keçirməsi vacibdir: "Ermənistan işğalçılıq, düşmənçilik siyasətindən əl çəkərək Azərbaycanla münasibətləri yaxşılaşdırmağa çalışmalıdır".

# Mirşahin əməliyyat çəkilişini yayımladı

***Tanınmış telejurnalist, Real TV-nin rəhbəri Mirşahin öz müəllif proqramının sonuncu buraxılışında Avropa ölkələrinə siyasi mühacirlər göndərən mütəşəkkil dəstəni faktlarla ifşa edib. O, sensasion sayıla biləcək əməliyyat çəkilişini də yayımlayıb. SİA həmin hissəni öz oxucularına da təqdim edir: Biz Sizi hüquq-mühafizə orqanlarının həyata keçirdiyi tədbirlər çərçivəsində aşkarlanmış faktlarla tanış olmağa dəvət edirik. Söhbət Kanada, Amerika Birləşmiş Ştatları və Avropa ölkələrində siyasi sığınacaq alınması üçün müəyyən məbləğlərdə maliyyə vəsaiti qarşılığında saxta sənəd hazırlayan mütəşəkkil bir dəstənin mürəkkəb və çoxşaxəli fəaliyyətindən gedir. Kimdir bunlar və nəylə məşğul olurdular: Əvvəl kimlikləri: Xanəli Əziz Əvəz oğlu, Sərdar İsgəndərov Yusif oğlu, Sərxan Abdullayev Ələddin oğlu, Şamil İbrahimov Mahmud oğlu, Zakir Əmirov Əjdər oğlu... və başqaları. Əməliyyat-axtarış tədbirləri davam etdiyindən başqaları haqqında hələ ki, danışmırıq.***




Onların Bakı şəhərinin müxtəlif ünvanlarında yerləşən ofislərindən çoxlu sayda saxta sənədlər, hüquq-mühafizə orqanları, idarə, müəssisə və təşkilatlar, eləcə də müxalif yönümlü siyasi partiyalara, məsələn, AXCP və Müsavat-a məxsus möhür və ştamplar maddi sübut qismində götürülüb. Aparılmış araşdırmalar zamanı müəyyən edilib ki, dəstə üzvləri bu əməlləri bir sıra bizə bəlli olan konkret ölkələrin diplomatik nümayəndəliklərinin əməkdaşları ilə maddi maraq zəminində həyata keçirib. O da məlum olub ki, xarici ölkələrə göndərilmiş şəxslər guya Azərbaycanda təqib olunmaları, hüquq-mühafizə orqanları tərəfindən müxtəlif təzyiqlərə məruz qalmalarını əks etdirən saxta sənədləri Qərb ölkələrinin müvafiq dövlət orqanlarına təhvil verərək "siyasi mühacir" statusu alırlar. Burda adını eşitdiyiniz Sərdar, Sərdar İsgəndərov, "Gəncliyin Elmi-Mədəni inkişafı" ictimai birliyinin sədridir. Qurumun kifayət qədər pozitiv, hətta işıqlı adı var. Bu qurumu axtarış səhifələrində axtarsanız, qarşınıza gəncləri xaricdə təhsil almağa dəvət edən bir ünvan çıxacaq. Məsələn, belə cazibədar suallarla. "Xaricdə təhsil alıb ölkənizə yüksək səviyyəli kadr kimi qayıtmaq istəyirsiniz? Amma necə və harda? Hansı sənədlər lazımdır, ərizə formasını necə doldurmalıyıq, bizdən nə tələb olunur? Hansı universiteti seçək ki, diplomu Azərbaycanda tanınsın? Bu suallarla beyninizi yormayın, www.gemi.az Gəncliyin Elmi-mədəni inkişafı Təşkilatı GEMİ sizin üçün bütün işləri asanlaşdırır, sərfəli qiymətlərlə xidmətlər təklif edir. Və sair və ilaxır. Sonda isə belə bir siyahı təqdim olunur: Aşağıdakı ölkələrdən birini seçə bilərsiniz: Almaniya, Avstriya, Norveç, Polşa, Litva, İtaliya, Macarıstan, Çexiya, Ukrayna, qardaş Türkiyə..." Belə. Gəncliyin Elmi mədəni-inkişafı. Qısaca GEMİ. Amma bu gəmi hara üzür, hansı sularda lövbər salır. Bu GEMİ və onun yol yoldaşları "YES TRAVEL" Məhdud məsuliyyətli cəmiyyətinin sədri Sərxan Abdullayev, Əziz Xanəli bilməmiş deyildilər ki, doğru yolla üzmürlər və bir gün bata bilərlər. Amma üzürdülər. Mütəşəkkil dəstə şəklində birləşərək, 2017-ci ildən etibarən yaşamaq üçün xarici ölkələrə gedən və ya turizm səfərləri edən ayrı-ayrı Azərbaycan vətəndaşlarının qanunsuz miqrasiyasını təşkil etmək məqsədilə xarici dövlətlərin səfirliklərindən qeyri-qanuni vizaların alınması üçün tələb olunan rəsmi sənədləri saxtalaşdırırmışlar. Belə deyək: çoxşaxəli bəd əməllərin yol xəritəsi. Qanun dilinə çevirsək belə alınır. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin mütəşəkkil dəstə tərəfindən törədilməklə dələduzluq, vəzifə səlahiyyətlərindən sui-istifadə, Qanunsuz Miqrasiyanın təşkilini mütəşəkkil dəstə tərəfindən törətmək, hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədilə saxtalaşdırma və qanunsuz hazırlama, yaxud ya bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, blankı hazırlama və ya sata, bilə-bilə saxta sənədlərdən istifadə etmə maddələri ilə başlanan cinayət işinin predmeti. Sadaladığım bu bəd əməllərin əlbəttə nə qədər ağır olduğu aydındır. Amma bütün bu dəhşətin, təhlükənin miqyasını izah etmək üçün bir az da vaxtınızı almalı olacam. Təhlükəli fəaliyyət coğrafiyasını dövlətin əksər mühüm strukturlarınadək uzadan mütəşəkkil qrup şər dahisi tək işləyib. Qarşılarına qoyduğu məqsədə çatmaq üçün lazım olan bütün dələduzluq infrastrukturu əllərinin altındadır. Necə deyərlər, məhdud bir məkanda, lap elə Vahid pəncərə yaradıblar. İstənilən sənədi hazırlamaq üçün istənilən dövlət qurumunun ixtiyarını imitasiya edə biləcək mexanizmə, alətlərə, avadanlıqlara malikdirlər. Təsəvvür edin: onlara kimisə siyasi mühacir kimi xaricə göndərmək lazımdır. Bəs xaricdə Siyasi mühacir kimi tanınmaq üçün nə tələb olunur? Tutaq ki, təzyiqə məruz qaldığını sübut edən arayış. Buyurun. Belə bir sənədi tərtib etmək üçün lazım olan hər növ imkan, zəruri blank forması, müvafiq möhür və ya ştamp var. Qalır imza qoymaq. O məsələ də öz həllini belə tapır:

Mütəşəkkil qrupun möhür, ştamp, blank və s. kolleksiyası zəngindir. Deməκ olar ki, Azərbaycan Respublikasının hər növ və müxtəlif təyinatı qurum və təsisatlarının ixtiyarı burda klonlaşdırılıb. 100-ə yaxın adda, möhürdə, ştampda, blankda... Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Bakı Baş Polis idarəsinin dairəvi möhürünə də, Xarici İşlər nazirliyi, Konsulluq İdarəsi-dairəvi möhürünə də, Azərbaycan Respublikası Azərbaycan Xalq Cəbhəsi Partiyasının dairəvi möhürünə də, Müsavat partiyasının Dairəvi möhürünə də malikdirlər. Burada əsasını bu gün Azərbaycandan kənarda dövlət əleyhinə çağırışlar edərək, hakimiyyəti zoraklılq yoluyla dəyişməyə, çevrilişə çağıran bədnam Qurban Məmmədovun qoyduğu "Hürriyyət" qəzetinin dairəvi möhürü də var. Təfərrüatlar, müasir fırıldaq kombinatorlarının əməl dairəsi barədə geniş açıqlamaları bir az gözləyəcəyik. Amma indi nümayiş etdirdiyimiz kadrlardan da görünür ki, özünü siyasi mühacir kimi təqdim edən potensial təhlükə daşıyıcıları hansı bətnlərdə doğulur, hansı yollarla vətənə asi olmağa gedirlər. Bu yalnız çirkli biznes, qeyri-qanuni pul qazanmaq, geniş miqyasda möhtəkirlik, insan qaçaqmalçılığına qanuni don geyindirmək cəhdi və bütün bunların həyata keçirilməsi üçün ASAN-a bənzər, amma tamam əks mahiyyətli, eybəcər, murdar, qara, çirkin məzmunlu qurum yaradanların adi dələduzluq anklavı deyil. Bu, Azərbaycan dövlətinə qarşı davamlı işləyən, dünyada yeganə sabit və inkişafda olan müsəlman dövlətinin içinə çaxnaşma, inqilab adı altında vətəndaş qırğını salmaqla, onu zəiflətmək, sonra da parça-parça hansısa dövlətlərin tərkibində əritmək planları cızan arxitektorların əlində alət olanların təhlükəli dəftərxana xəfiyyəçiliyi, çuğulçuluğudur. Bu şəbəkə əslində olmayan bir insanı dünyaya gətirə, ona vətəndaşlıq verə, istənilən ali məktəbdə oxuda, xaricə göndərə, geri qaytara, adına hesab aça, ağlınıza nə gəlirsə onu edirə, sonra onu vətəndaşlıqdan məhrum edə, işləklərinin üzə çıxdığı təhlükəsi yaranarsa hətta öldürə də, qətlə yetirdə də, sadəcə vəfat etdirə də bilərdi. Təkrar edirəm, o adam dünyada olmaya-omaya. Bir binanın divarları arasında. Dəhşət və vəhşətlər bətni. Bax neçə vaxtdır ki, həyəcan təbili çaldığımız, sizi tanış etməyə çalışdığımız siyasi mühacir alverinin birinci piştaxtası buradır. Təsadüfi deyil ki, siyasi mühacir alveri ölkənin özünü aparıcı hesab edən iki müxalifət partiyasının yaxından iştirakıyla həyata keçirilir. Ya da hələlik bizə yalnız bu iki partiyanın adı məlumdur. Azərbaycan Xalq Cəbhəsi Partiyası və Müsavat. "Hürriyyət" qəzetinin də möhürünü əlavə etsək, dırnaqarası samballı kompaniya alınır. Xaos müxalifəti Azərbaycandan Avropaya siyasi mühacir ixrac etməyin kəsə yolunu burda tapıbmış. Onları Avropada gözləyirlər. Fırıldaq dəzgahının hazırladığı saxta məmulatları və ya məlumatları orada təmizə çıxaran təşkilatlar da var. Keçmişi şübhəli, bir sıra hallarda cinayətə bulaşmış azərbaycanlılar, azərbaycansızlar Bakıda aldıqları saxta statusları xaricdə təsdiqlətdirməkdən ötrü dövlət əleyhinə çıxışlar edir, vətəndaşları dövlət çevrilişinə çağırır, təhqirlərdən belə çəkinmirlər. Neçə vaxtdır ki, hüquq-mühafizə orqanları antidövlət müxalifəti siyasi mühacir adı altında əslində insan alveri ilə məşğul olmaqda şübhəli bilirdi, araşdırmalar aparırdı. İndi isə bəzi yekunları elan etmək olar. Şəbəkənin konturları artıq aydın görünür. Deməli, Azərbaycan Xalq Cəbhəsi və Müsavat mütəşəkkil qrupa hazırlatdığı "siyasi mühaciri" və ya mühacirləri xaricə göndərir. Hər belə oyuncaq mühacir samballı vəsaitdir. Bəzən hansısa potensial belə mühacir tələb olunan məbləğdən narazı qalır, dəvədən böyük fil var deyə, sifariş verən tərəfin özünə, Əli Kərimlinin xaricdəki piştaxtalarından birinin arxasında oturan dəllalına-Qənimət Zahidə birbaşa efirdə şikayət də edir.

Qənimətin gülüşünü bir kənara qoyaq. Amma müraciət edən şəxsin nitqindən aydın olur ki, o Əli Kərimlinin rəhbərlik etdiyi güruhun üzvüdür. Və faktlara istinad edir. Bəs siyasi mühacir biznesindən qazanılan nədir və o hansı məqsədlərə xərclənir. Əvvəla, Azərbaycan əleyhinə rəqib dövlətlərin tələblərinə uyğun fəaliyyət göstərən Sevinc Osmanqızı, Qənimət Zahid kimi ideoloji törəmələrə. Onların internet tvlərinə. Eyni zamanda müəyyən təlimdən sonra dırnaqarası mühacirlər özləri də antiAzərbaycan ruporlara-internet tv-lərə, bloqerlərə təhvil verilir. Onların da dövlət əleyhinə fəaliyyəti nizama salınır. Qurulmuş sxemə uyğun olaraq Azərbaycan hədəf seçilir. Nailiyyətlərə istehza edilir, yalnız adi qüsurlar, ve inkişf prosesini təbii müşayiət edən adi nöqsanlar qabardılır, vətəndaşda məmura kin-küdurət aşılanır, bolşevizmin baş xətti olan kasıbların varlılara qarşı qaldırılması tendensiyası təbliğ olunur.

# Çinin Xalq Siyasi Məşvərət Şurasının üzvü ADU-da

Azərbaycan Dillər Universiteti (ADU) nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunda ADU-nun rektoru, akademik Kamal Abdullanın dəvəti ilə Azərbaycana gələn Çin Sosial Elmlər Akademiyası Siyasi Elmlər İnstitutunun direktoru, Çin Xalq Siyasi Məşvərət Şurasının üzvü, professor Çjan Şuhua başda olmaqla Pekindən gələn elmi və pedaqoji işçilərdən ibarət nümayəndə heyəti ilə görüş keçirilib. SİA-nın məlumatına görə, görüşdə çıxış edən ADU-nun Elm və innovasiya məsələləri üzrə prorektoru, professor Sevinc Zeynalova təhsil sahəsində Azərbaycan-Çin əməkdaşlığının əhəmiyyətini qeyd edərək universitetlər arasında elmi əməkdaşlığın genişləndirilməsinin, o cümlədən birgə tədqiqat layihələrinin həyata keçirilməsinin, elmi konfransların təşkilinin vacibliyini vurğulayıb. Konfutsi İnstitutunun direktoru Rafiq Abbasov tarixi İpək Yolunun dirçəlməsi ilə qlobal "Bir kəmər və bir yol" Çin layihəsinin həyata keçirilməsi istiqamətində aparılan araşdırmalarda ixtisaslaşan rəhbərlik etdiyi qurumun elmi və ictimai fəaliyyəti, tədris prosesi barədə qonaqlara məlumat verib. O, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci ildə Çinə rəsmi səfəri zamanı imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu"nun əhəmiyyətini vurğulayıb.



Çin nümayəndə heyətinin üzvləri Siyasi Psixologiya Mərkəzinin rəhbəri, Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı daimi nümayəndə heyətinin rəhbəri, professor Səməd Seyidov ilə görüşüblər. Görüşdə Azərbaycan-Çin münasibətlərinin inkişafı, Çinin siyasi inkişafının xüsusiyyətləri, islahatların aparılması və açılması siyasətləri, Çin xüsusiyyətləri ilə sosializmin qurulmasının nəzəri cəhətləri müzakirə edilib. Professor Çjan Şuhua Çinin siyasi inkişafının beynəlxalq əhəmiyyəti və beynəlxalq münasibətlərin demokratikləşməsinə həsr olunmuş "Dünya Siyasətindəki dəyişikliklər və Çinin yeni dövrü" mövzusunda məruzə ilə çıxış edib.

Qonaqlar Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovla da görüşüblər. İclasda ekoloji sivilizasiya konsepsiyasının davamlı inkişaf məqsədi kimi yaşıl iqtisadiyyat, yaşıl həyat tərzi, o cümlədən demoqrafiya və yeni istehlakçı mədəniyyətinin formalaşması proseslərinin planlaşdırılması və idarə olunması sahəsində Azərbaycan-Çin elmi əməkdaşlığının perspektivləri barədə fikir mübadiləsi aparılıb. Daha sonra çinli alimlər Sosial Tədqiqatlar Mərkəzində İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Zahid Orucla görüşüblər. Görüşdə Çinin sosial siyasət və sosial islahatlar sahəsindəki təcrübəsi ilə bağlı fikir mübadiləsi aparılıb, birgə tədqiqat layihələrinin həyata keçirilməsi planları müzakirə edilib. Çindən gələn qonaqlar - Çin Klassik Tibb Elmi-Tədqiqat İnstitutunun direktoru, professor Syuehun Fan və Pekin Bədən Tərbiyəsi və İdman Universitetinin professoru Tao Men ənənəvi Çin təbabəti, sağlamlıq üçün gimnastika "Tai Chi chuan" və təkbətək döyüş sənətinin "Wushu" əsasları mövzusunda master-klasslar keçiriblər.

# Azərbaycan-İsrail arasındakı münasibətlər qarşılıqlı hörmətə və razılığa əsaslanır

*Amerikanın "CNSNews" nəşrində İsrail-Azərbaycan münasibətləri "bizim dünyaya göstərə biləcəyimiz əlaqələr" kimi dəyərləndirilib*

***Müasir dünyamızda dövlətlər arasında münasibətlərin yaranması, əməkdaşlığın möhkəmlənməsi, dünya birliyinin inkişafı sahəsində məqsədlərə birgə nail olunması əsas məsələlərdən biri olaraq diqqətdədir. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, ölkəmizlə dünya dövlətləri arasında münasibətlər daha da sıxlaşır, iqtisadi, mədəni və siyasi münasibətlər müstəvisində uğurlar əldə olunur. Dünyanın bir çox ölkələri ilə yanaşı, Azərbaycanla İsrail arasında əlaqələr də yüksələn bir xətlə inkişafdadır.***

İki ölkə arasında münasibətlərin inkişafına dövlət başçılarının görüşləri təkan verib. Vurğulamaq yerinə düşər ki, 1993-cü ilin avqustundan İsrailin Azərbaycanda səfirliyi fəaliyyət göstərir. Mövcud əlaqələrin inkişafında, təbii ki, Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri var. Azərbaycanın sülhsevər və çoxmillətli ölkə olduğunu çıxışların birində qeyd edən Ulu Öndər Heydər Əliyev yəhudilərin əsrlər boyu burda azərbaycanlılarla dost və mehribancasına yaşadığını bildirib: "Yəhudilər azərbaycanlılarla birlikdə Azərbaycanda əsrlər boyu dostluq, mehribanlıq şəraitində yaşayıblar. ...yəhudilər Azərbaycanın tam bərabər hüquqlara malik vətəndaşlarıdır və Azərbaycan onlar üçün doğma vətəndir. Bunların hamısı bizim əməkdaşlığımız üçün yaxşı imkan yaradır".




## İKİ ÖLKƏ ARASINDA MÜNASİBƏTLƏR BU GÜN YENİ BİR MƏRHƏLƏDƏ İNKİŞAFDADIR

Ölkələrimiz arasında əlaqələrin inkişafında və möhkəmlənməsində siyasi və iqtisadi maraqlar mühüm rol oynayır. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi xarici siyasət nəticəsində, Azərbaycan ilə İsrail arasında enerji, müdafiə, milli təhlükəsizlik, səhiyyə, kənd təsərrüfatı, informasiya texnologiyaları, turizm və s. sahədə sıx əməkdaşlıq var. Azərbaycanda çox sayda İsrail şirkətləri fəaliyyət göstərir. Təbii ki, bu əlaqələr - iki ölkə arasındakı münasibətlər qarşılıqlı hörmətə və razılığa əsaslanır.

Bu günlərdə Amerikanın "CNSNews" nəşrində xəbərlər bölməsinin redaktoru və onlayn kontentin, həmçinin, "The Jerusalem Post" strategiyasının rəhbəri Maayan Caffe-Hoffmanın baş nazir Benyamin Netanyahunun rəhbərliyi altında İsrailin qazandığı nailiyyətlərdən bəhs edən məqaləsi dərc olunub. Məqalədə Netanyahunun 13 illik hökuməti dövründə onun rəhbərliyi ilə xarici siyasət sahəsində əldə olunan uğurlardan, xüsusən, İsrailin müsəlman ölkələri ilə münasibətlərindən danışılır. Azərbaycan-İsrail münasibətlərinə toxunan müəllif iki dövlət arasında bu əlaqələri İsrailin müsəlman ölkələri ilə münasibətlərində artan nailiyyətlərin parlaq nümunəsi adlandırıb. Netanyahu özü İsrail-Azərbaycan münasibətlərini "bizim dünyaya göstərə biləcəyimiz əlaqələr" kimi dəyərləndirib.

## AZƏRBAYCANDA ANTİSEMİTİZM YOXDUR VƏ YƏHUDİLƏRƏ DOST MÜNASİBƏTİ GÖSTƏRİLİR

İsrail və Azərbaycan arasında hərbi-texniki əməkdaşlıq daim inkişaf edir və möhkəmlənir. Stokholm Beynəlxalq Sülh Tədqiqatları İnstitutunun məlumatına görə, 2017-ci ildə Azərbaycan İsraildən daha çox silah alan üçüncü ölkə olub (137 milyon dollar dəyərində). Müəllif vurğulayır ki, İsrail-Azərbaycan münasibətləri təkcə təhlükəsizlik sahəsində tərəfdaşlıqdan ibarət deyil. Azərbaycanlılarla bu ölkədə yaşayan yəhudi icması arasında qədim dostluq və qardaşlıq əlaqələri mövcuddur. Müxtəlif ölkələrdən olan yəhudi mənşəli qonaqlar, həmçinin, İsraildən Azərbaycana gələn müsafirlər və diplomatlar qeyd edirlər ki, bu diyarda antisemitizm yoxdur və yəhudilərə dost münasibəti göstərilir. Müəllif vurğulayır ki, 2600 ildən çoxdur ölkədə yaşayan Azərbaycanın Yəhudi İcması heç bir zülmə, qırğına və ya yerli əhali tərəfindən digər nifrət təzahürlərinə məruz qalmayıb.

## ÖLKƏMİZ SİVİLİZASİYALARARASI VƏ KONFESSİYALARARASI DİALOQUN MODELİDİR

Bu gün Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal etmiş təcavüzkar dövlətdir. Ermənistanla münaqişənin və Azərbaycan ərazilərinin işğal edilməsinin belə vəziyyəti Cənubi Qafqaz regionunda sülhə və təhlükəsizliyə təhdid kimi qalmaqdadır. İsrail dövləti Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini yalnız beynəlxalq hüquq normaları və dövlətlərin ərazi bütövlüyü prinsipi çərçivəsində tənzimləməyə çağırır. Mürəkkəb geosiyasi şəraitdə Azərbaycanın ədalətli mövqeyinin Yaxın Şərqdə onun mühüm strateji tərəfdaşı olan İsrail dövləti tərəfindən dəstəklənir. Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi etnik təmizləmə və təcavüz nəticəsində ölkə ərazisinin 20 faizinin işğal edilməsinə, ölkədə bir milyon qaçqın və məcburi köçkün yaranmasına baxmayaraq, Azərbaycan sivilizasiyalararası və konfessiyalararası dialoqun əsl modelidir.

## AZƏRBAYCANIN YƏHUDİ İCMASI İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRİN MÖHKƏMLƏNMƏSİNƏ TÖHFƏLƏRİNİ VERİR

Azərbaycanla İsrail arasındakı münasibətlərdə ən vacib aspektlərdən biri, təbii ki, ölkəmizdə yaşayan yəhudi icmasıdır. Azərbaycan Prezidenti İlham Əliyev iki ölkə arasında qarşılıqlı münasibətlərin inkişafında yəhudi icmasının rolunu dəfələrlə qeyd edib. Azərbaycan dövlətinin başçısının vurğuladığı kimi, Azərbaycan və yəhudi xalqları əsrlər boyu sülh və qarşılıqlı anlaşma şəraitində yaşayıb, ölkələrimiz arasında bu dostluq və qardaşlıq münasibətləri bu gün də davam edir. Azərbaycanın yəhudi icması ikitərəfli münasibətlərimizin möhkəmlənməsinə fəal kömək edir. Azərbaycan 2 min ildir yəhudi icması üçün təhlükəsiz sığınacaq və vətəndir. Yəhudi İcması antisemitizmin olmadığı bu ölkədə o vaxtdan yaşayıb və yaşayır. Hazırda Azərbaycanda 7 sinaqoq, 2 yəhudi ibtidai məktəbi, 3 bağça və 1 "Yeşiva" fəaliyyət göstərir.

## AZƏRBAYCAN TOLERANTLIQ NÜMUNƏSİ İLƏ BÜTÜN STEREOTİPLƏRİ MƏHV EDİR

Azərbaycanın əsl qürur yeri olan Qırmızı Qəsəbə bütün dünyada İsraildən sonra dağ yəhudilərinin yığcam şəkildə yaşadığı yeganə unikal məkandır. Azərbaycanda yaşayan yəhudilərin Şabat bayramının Qırmızı Qəsəbədə keçirməsi, həqiqətən də, buranın onlara doğma diyar olmasından xəbər verir. Burada ayrı-seçkilik kimi hallardan əsər-əlamət yoxdur. Onlar burada sülh şəraitində xoşbəxt yaşayırlar. Odlar Diyarında yəhudilər və müsəlmanlar əsrlər boyu dinc yanaşı tərzdə yaşayır və harmonik həyat sürürlər. Azərbaycan özünün tolerantlıq nümunəsi ilə dünyada mövcud olan bütün stereotipləri məhv edir. Azərbaycan nümunəsi göstərir ki, əsas dinlərin - iudaizm, xristianlıq və islam dinlərinin nümayəndələrinin qarşılıqlı hörmət əsasında harmonik inkişaf etmələri üçün bu cür dinc yanaşı yaşamaq mümkündür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Xalq heç bir zaman polisinə ləkə atılmasına imkan verməz

*Sosial şəbəkələrdə polisin fəaliyyəti ilə bağlı qərəzli, məqsədli və sifarişli qara-piar kampaniyası aparan antimilli qüvvələrin bu əməlləri də iflasa məhkumdur*

Azərbaycan bu gün, demək olar ki, həyatın bütün sahələrində böyük uğurlar qazanır və ölkəmizin yüksəlişi beynəlxalq aləmdə də etiraf olunur. Ölkəmizdə demokratik təsisatlar, insan hüquqları, söz və mətbuat azadlığı və ən əsası, sabitlik və təhlükəsizlik tam təmin olunub. Qlobal miqyasda tüğyan edən təhdidlər, terror dalğaları fonunda Azərbaycan özünün sabit və təhlükəsiz ölkə imicini tam təsdiqləyib. Məhz Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan müasir mürəkkəb dünyada sabitlik adası kimi tanınır. Ölkəmizdə vətəndaşlar öz gələcəyi barədə heç bir narahatlıq keçirmirlər.

Əlbəttə ki, bu sabitlik xalqın arzu, istək və iradəsini təcəssüm etdirir. Çünki ictimai-siyasi sabitlik hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolu seçmiş hər bir dövlətin mövcudluğunun mühüm şərtlərindən biridir.

Respublikamızda ictimai asayişin, qanunçuluğun və hüquq qaydalarının etibarlı təminatı, vətəndaşların konstitusion mənafelərinin yüksək səviyyədə qorunması, kriminogen durumun sabitliyi Azərbaycanın ötən müddətdə qazandığı ən mühüm nailiyyətlər sırasındadır. Sirr deyil ki, respublikamızın ictimai-siyasi sabitlik şəraitində inkişafında, ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizənin səmərəli təşkilində, dövlətçiliyin hər cür cinayətkar qəsdlərdən müdafiəsində, vətəndaşların təhlükəsiz yaşamaq kimi fundamental hüququnun təminatında Daxili İşlər Nazirliyinin və onun ayrı-ayrı strukturlarının müstəsna rolu var. Cinayətkarlığın bütün forma və təzahürlərinə qarşı amansız mövqe tutan daxili işlər orqanları qanunla üzərinə düşən vəzifələri yerinə yetirməklə, iqtisadi inkişafın mühüm şərti olan sabitliyin təminatı üçün bütün zəruri tədbirləri həyata keçirməklə xalqın və dövlətin sadiq keşikçisinə çevrilib, ictimai etimad qazanıblar. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə böyük inkişaf yolu keçərək, dövlətin mühüm təsisatı kimi formalaşmış və təşkilati cəhətdən möhkəmlənmiş daxili işlər orqanları bu gün Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində fəaliyyətini daha da təkmilləşdirib, nailiyyətlərini artırıb.

Azərbaycan polisi bu gün ölkədə daxili sabitliyin və asayişin qorunması işini uğurla davam etdirir və hər bir ölkə vətəndaşı öz polisinə güvənir. Xarici turistlərin Azərbaycana gəlişi, səhərə qədər mərkəzi küçələrdən səngiməyən qələbəliklər, təhlükəsizlik və könül oxşayan mənzərələr Azərbaycan polisinin fədakar fəaliyyətinin yaratdığı nümunədir.

Lakin bütün bunların fonunda bəzi antimilli qüvvələr və onların ölkəmizdəki buyruq qulları son zamanlar sosial şəbəkələrdə Azərbaycan polisi haqqında həqiqəti əks etdirməyən, qərəzli, subyektiv mülahizələrə əsaslanan məlumatlar yaymaqla məşğuldurlar. Özünü guya müxalifət adlandıran, amma fəaliyyətlərinin əsl mahiyyətində dövlətə qarşı xain mövqe tutan, müxtəlif xarici siyasi qurumların alətinə çevrilən qüvvələrin iç üzünü zaman-zaman görmüşük və bu adamlar hər zamankı kimi, xaricdəki ağalarının sifarişlərini icra etməkdədirlər. Ölkəmizin yüksək imicinə zərər vurmağı bu adamlar şəxsi istəkləri ilə deyil, alət olduqları bəzi xarici qüvvələrin istəyi ilə reallaşdırırlar. Onlar indi də hər zaman xalqın keşiyində duran, daxili sabitliyin təmin olunmasında müstəsna rolu olan Azərbaycan polisinə qarşı qarayaxma kampaniyası aparırlar.




Azərbaycan polisi ictimai asayişin qorunmasında, müstəqil dövlətimizə qarşı yönələn cinayətkar qəsdlərin qarşısının alınmasında müstəsna xidmətlər göstərir. Torpaqlarımızın müdafiəsi, cinayətkarlığın səviyyəsinin azalması, silahlı quldur dəstələrinin zərərsizləşdirilməsi, mütəşəkkil cinayətkarlığa qarşı effektiv mübarizənin təşkili və digər kriminal hadisələrin qarşısının alınmasında şərəflə çalışmış daxili işlər orqanlarının şəxsi heyəti üzərlərinə düşən vəzifələri layiqincə həyata keçirirlər. Ölkədə sabitliyin əldə edilib möhkəmlənməsində, dövlətçiliyin qorunmasında, cinayətkarlıqla mübarizədə xidmətlər göstərmiş daxili işlər orqanları həm də milli maraqların ifadəçisidir. Qarabağ savaşında sıralarından yüzlərlə şəhid verib, asayişin mühafizəsində və konstitusion dövlət quruluşunun qorunmasında fədakarlıqlar göstərən polis hər zaman qətiyyətli mövqeyi, vətəninə, xalqına və Prezidentinə sədaqəti ilə seçilib.

Azərbaycan polisi müstəqil ölkəmizin daha da çiçəklənməsi və qüdrətlənməsi naminə üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlir və bundan sonra da gələcək. Eyni zamanda, polis-vətəndaş həmrəyliyinin hər gün daha da yaxşılaşmasının bir nümunəsi həm də polisin işinə kölgə salmaq istəyən qüvvələrə tutarlı cavabdır. Sosial şəbəkələrdə polisin fəaliyyəti ilə bağlı qərəzli, məqsədli və sifarişli şərhlər isə antimilli qüvvələrin çirkin kampaniyasının tərkib hissəsidir. Lakin onların Azərbaycan polisinə qarşı apardığı bu qarayaxma iflasa məhkumdur. Xalq heç bir zaman polisinə ləkə atılmasına imkan verməz.

***"Səs" Analitik Qrupu***

# “Bu, düşmənə çox ciddi xəbərdarlıqdır”



“Dövlət Sərhəd Xidmətinin Azərbaycan-Ermənistan təmas xəttində döyüş postlarını irəli çəkməklə neytral zonadakı torpaqları nəzarət altına götürməsinin çox böyük önəmi var. Bu, Silahlı Qüvvələrimizin öz üzərinə düşən vəzifəni yüksək səviyyədə yerinə yetirmək qabiliyyətində olduğunu göstərir”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Mirzəzadə deyib.O bildirib ki, Yüksək texniki təchizat, hərbi qulluqçularımızın peşəkarlığı öz nəticəsini verməkdədir. Azərbaycanın işğal altındakı torpaqlarını azad edərək nəzarətə götürdüyünü deyən deputat söyləyib ki, bu, yalnız cəbhə xəttində deyil, eyni zamanda Ermənistanla sərhəd xəttində də həyata keçirilir: “Çünki ötən əsrin 90-cı illərində həmin ərazilər Ermənistan tərəfindən nəzarətə götürülmüşdü. İndi hərbçilərimizin bu torpaqları geri qaytarması prosesi baş verir. Yada salım ki, ötən ilin may ayında Naxçıvanda Günnüt kəndi və onun yaxınlığındakı yüksəklik nəzarətə götürülmüşdü. İndi isə gələn məlumata görə sərhəddə yeni ərazilər nəzarətə götürülüb”. A. Mirzəzadə qeyd edib ki, baş verənlər Azərbaycanın öz torpaqlarını heç kəsə güzəştə getmək fikrində olmadığını bir daha göstərir: “Ərazi bütövlüyünü təmin etmək üçün Azərbaycanın kifayət qədər gücü və potensialı var. Bu, düşmənə çox ciddi xəbərdarlıqdır”.

## Mübariz Əhmədoğlu: “İran və Rusiyada vəziyyəti gərginləşdirmək də Paşinyanın vəzifələri sırasına daxildir”



“Moskvada keçirilən son mitinq də kütləviliyi və aqressivliyi ilə seçildi. Təxminən, 2 ay öncə milliyyətcə erməni, RT telekompaniyasının rəhbəri Marqarita Simonyan Ermənistanda rusiyalı gənclərin çağırılaraq, mitinqlər təşkil etmək hazırlığını keçdiyini bildirdi. Başqa sözlə, Yerevan Moskvadakı mitinqlərin təşkili üçün təlimatçılar hazırlayıb göndərib”. Bunu KİV-ə açıqlamasında politoloq Mübariz Əhmədoğlu bildirib. Onun sözlərinə görə, Moskvadakı son mitinqlərdə baş verənlər rəngli inqilab texnologiyasının istifadə olunduğunu göstərir. Son modern variant əvvəlcə Ermənistanda, sonra Rusiyaya tətbiq olundu. Bu, Paşinyan və onun ətrafı üçün təkcə maliyyə mənbəyi deyil. Əgər Moskvada mitinqlər effekt verərsə, əlavə siyasi dividendlər də ortalıqda olacaqdır: “20 iyun mitinqindən qabaq, həmin ayın 18-21-də Tbilisidə “Ermənistanda “məxməri inqilab” və onun perspektivliyi” ilə bağlı tədbir təyin olunmuşdu. Daha maraqlısı İranla baş verir. İran və Ermənistan elektrik stansiyalarında eyni vaxtda elektrik cərəyanının qalxıb-enməsi baş verdi. Ermənistanda bu, blekauta səbəb oldu. Görünür, İranın elektrik stansiyalarının kiber müdafiəsi möhkəm olduğu üçün bu ölkədə fəsad yaratmadı. N.Paşinyan dərhal işə müdaxilə etdi. Ermənistanın daxilində heç bir amilin blekauta səbəb olmadığını bildirdi. Dünya praktikasında elektrik stansiyasında baş verən qəzaların səbəbini ən geci 10 gün ərzində tapmaq mümkündür. Ermənistan rəsmiləri, o cümlədən, təhlükəsizlik xidmətinin rəhbəri A.Vanetsyan da bildirdi ki, 10 gün ərzində hər şey ictimaiyyətə açıqlanacaq. Görünür, N.Paşinyanın tapşırığının mahiyyəti ondan ibarət imiş ki, Ermənistandakı blekaut kənardan olan müdaxilənin təsiridir. İran və Ermənistanın elektrik stansiyalarında eyni vaxtda elektrik qalxıb-enməsi baş verdiyini Paşinyan bilir. N.Paşinyan maraqlıdır ki, hazırlanan hesabatda Ermənistandakı blekautun günahkarı kimi İran tərəfi göstərilsin: İran Ermənistanın daxilinə kiberhücum edib. İran kiberhücum etdiyi üçün Ermənistan beynəlxalq aləmə müraciət edir və İrana qarşı lazımi addımlar atılır. Ehtimal ki, İranın mütəxəssisləri gücü olduğu üçün Ermənistanın planını pozublar. Gürcüstan, İran və Rusiya Ermənistanın qonşularıdır, Ermənistan bu 3 qonşusu üçün də alətə çevrilir. Bir neçə il bundan qabaq isə, artıq Ermənistanı Azərbaycanın və Türkiyənin əleyhinə istifadə edirdilər. Ermənilərdən qonşu dövlətlərə qarşı alət kimi istifadə olunması praktikası dayandırılmalıdır. Bu, Ermənistanın qonşularının ən vacib məsələsidir.

***İlham***

# Müxalifət yararsız tullantıya çevrilib

*“Xarici dairələr ələbaxım funksiyasını yerinə yetirən müxalifətdən istifadə edir”*

***Müxalifətdaxili durum gərginləşdikcə, partiyalardan qopmaların seriyası da genişlənir. Partiya sədrləri isə, sanki kar və kormuş kimi, baş verən acınacaqlı vəziyyətə baxmayaraq, səhv və yanlış siyasətlərini davam etdirirlər. Hətta bəzi partiya sədrləri kütləvi aksiyalar keçirmək təşəbbüsləri ilə çıxışlar edirlər.***

Ancaq fakt ondan ibarətdir ki, cəmiyyət tərəfindən müxalifətə ikrah hissi ilə yanaşma olduğundan, mitinq iddialarında sərt münasibət nümayiş etdirirlər. Bu baxımdan, AXCP və Müsavat kimi tör-töküntüdən, arici maraqlı dairələrin sifarişləri əsasında fəaliyyətlərini quran partiyaların mitinq keçirmək arzuları elə arzu olaraq qalacaq. Söhbət etdiyimiz müsahiblərimiz də, əlləri xarici qüvvələrin cibində olan müxalifət başbilənlərinin mitinq keçirməklə, diqqəti özlərinə cəlb etmək istəklərinin baş tutmayacağını bildirdilər.

### “Yurddaş” partiyasının sədri Mais Səfərli: **“Müxalif başbilənləri xalqın inamını itirmiş yalançılardır “**



- Bu, artıq bir faktdır ki, son 25 ildə müxalifət başbilənləri ancaq öz şəxsi maraqlarından çıxış edib və siyasi məkanda yalnız öz maraqlarının təmin olunması üçün fəaliyyətini qurub. Ona görə də, adlarını müxalifət qoyan bu qaragüruhçular ölkəmizdə ictimai-siyasi proseslərdə uğur qazana bilməyiblər, ictimai dəstəkdən məhrum olunublar. Xarici məkrli qüvvələrin sifarişlərini yerinə yetirməklə, ölkədəki mövcud ictimai-siyasi sabitliyi pozmağa can atan Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı və digər qaragüruhçular, hər dəfə ayrı-ayrı dövlətlərdə xoşagəlməz hadisələr baş verəndə, özlərinin varlığını sübut etmək üçün fəallaşır və diqqət mərkəzinə çevrilməyə çalışırlar. Hər zaman olduğu kimi, yenə də müxalifət düşərgəsində təmsil olunan şəxslər reallığı özündə əks etdirməyən xəyallarla yaşayaraq, ümid edirlər ki, nə vaxtsa onlar da nəyə isə nail ola biləcəklər. Yəni müxalifətin keçirmək istədiyi mitinqlərin heç bir nəticəsi olmayacaqdır. Çünki bu arzuların həyata keçməsi mümkün deyil. Müxalif başbilənləri xalqın inamını itirmiş yalançılardır. Bu baxımdan, müxalifət hansısa uğurlu mitinq keçirə bilməz.

### TOHGMİB-nın sədri Emin Həsənli: **“Müxalifət xəyanətkar və satqınçılıq yolu tutub “**

- Hər zaman olduğu kimi, bu dəfə də müxalifət düşərgəsini təmsil edən şəxslər özlərini reklam edərək, bir müddət gündəmdə qalmaq üçün mitinq keçirmək niyyətinə düşüblər. Yəni müxalifət mitinq keçirməklə, onu demək istəyir ki, biz də varıq. Amma



onların var olub-olmaması cəmiyyət üçün maraqlı deyil. Çünki xalq müxalifətin məkrli xarici maraqlı dairələrə bağlı olduğunu və hansı pozucu planlar qurduğunu çox yaxşı bilir. Reallıq ondan ibarətdir ki, müxalifət partiya sədrlərinin özləri də, çox yaxı bilirlər ki, onların xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur. Ümumiyyətlə, onlar tərəfindən planlaşdırılan mitinqlərə ancaq özlərinin partiyalarında təmsil olunanlar və qohumları qatılırlar. Bir sözlə, hər zaman olduğu kimi, bu dəfə də müxalifət tərəfindən keçirilməsi planlaşdırılan mitinqlər uğursuzluqla nəticələnəcəkdir. Çünki AXCP sədri Əli Kərimli, Müsavat başqanı Arif Hacılı və digərləri öz ağılları ilə hərəkət etmirlər. Onları aksiyalar keçirməyə, ölkəmizdəki mövcud ictimai-siyasi sabitliyə xələl gətirməyə və bununla da, mütərəqqi uğurlara kölgə salmağa məcbur edən qüvvələr var. Bu, həmin məkrli xarici dairələrdir ki, müxalifətə maliyyə yardımları göstərir. Yəni xarici dairələr ələbaxım funksiyasını yerinə yetirən müxalifətdən istifadə edir. Bir növ, müxalifət maşa rolunu oynayır. Bu da, onu deməyə əsas verir ki, müxalifət xəyanətkar və satqınçılıq yolu tutub. Belə müxalifət və onların başbilənləri hər cür ittihama və qınağa layiqdir.

***GÜLYANƏ***

# Bu abituriyentlər üçün ərizə qəbulu sistemi yenidən aktiv edilib

Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün əvvəlki aylarda aparılan elektron qeydiyyatdan keçməyən abituriyentlər üçün ərizə qəbulu sistemi yenidən aktiv edilib. Dövlət İmtahan Mərkəzindən SİA-ya verilən məlumata görə, tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə (kolleclərə) ərizə qəbulu iki dəfə - 2019-cu il martın 15-dən aprelin 15-dək və mayın 30-dan iyunun 12-dək aparılıb.

Bu müddət ərzində qeydiyyatdan keçməyən, lakin buraxılış imtahanında (əvvəlki illərin məzunları üçün qəbul imtahanının birinci mərhələsində) iştirak edərək orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün tələb olunan müsabiqə şərtlərini ödəyən abituriyentlər 19 avqust saat 23.59-dək “ekabinet.dim.gov.az” internet səhifəsində “Şəxsi kabinet” yaratdıqdan



sonra şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə “Abituriyentin elektron ərizəsi” formasını doldurub təsdiq edə bilərlər.

Yuxarıda göstərilən tarixlərdə hər hansı bir ixtisas qrupu üzrə elektron ərizəsini təsdiq etmiş, lakin kolleclərin müsabiqəsində iştirak etmək üçün qeydiyyatdan keçməyən abituriyentlər də elektron ərizələrinə daxil olmaqla müvafiq bəndi seçib qeydiyyatdan keçə bilərlər (müsabiqə şərtlərini ödədikləri halda).

Xatırladaq ki, 11 illik təhsil bazasında kolleclərin ixtisas seçiminə ümumi balı 50-dən, Azərbaycan (rus) dili və riyaziyyat fənlərinin hər biri üzrə balı 10-dan az olmayan (xarici dil fənni üzrə bal məhdudiyyəti tətbiq edilmir) abituriyentlər buraxılırlar.

Tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ixtisas seçimi isə 15-19 avqust tarixlərində aparılacaq.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

15 avqust 2019-cu il

# "Qoşulmama Hərəkatı Azərbaycan üçün əhəmiyyətli platformadır"

***Oktyabrın 25-26-da Bakıda Qoşulmama Hərəkatına (QH) üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü keçiriləcək və Azərbaycan Respublikası 2019-2022-ci illərdə bu quruma sədrlik edəcək. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin idarə heyətinin sədri Fərid Şəfiyev Hərəkatın üzv dövlətlər arasında əlaqələrin intensivləşməsi üçün yaratdığı imkanlardan, bu platformanın Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi üçün əhəmiyyətli rolundan danışıb.***



Qoşulmama Hərəkatı 120 üzv ölkəni, 17 müşahidəçi dövləti və 10 müşahidəçi təşkilatı birləşdirən forum kimi BMT-dən sonra dünya dövlətlərinin ən böyük toplantısı hesab olunur. Hərəkat ilkin olaraq üzv dövlətlərin milli müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və təhlükəsizliyinin qorunması çərçivəsində imperializm, müstəmləkəçilik və post-müstəmləkəçilik, irqçilik və hər hansı xarici müdaxilə, zorakı kənar təsir və təzyiq, eləcə də böyük güclərin münaqişə zəminində yaratdıqları çoxüzvlü hərbi və siyasi bloklara qarşı formalaşıb.2006-cı ilin sentyabrında Qoşulmama Hərəkatının Kubanın paytaxtı Havanada keçirilən Sammitində üzv ölkələr Qərb və Sovet İttifaqı arasında soyuq müharibənin başa çatması və qütblərdən birinin dağılmasının QH-nin inkişaf etməkdə olan dövlətlər üçün önəmini azaltmadığını bildirib və hərəkatın yeni dövr üçün məqsədlərini müəyyənləşdiriblər. Onlar Hərəkatın inkişaf etməkdə olan dövlətlər üçün siyasi koordinasiya mexanizmi kimi gücləndirilməsinə və qlobal təhdidlərə qarşı üzv ölkələr arasında əməkdaşlığın əlaqələndirilməsində aparıcı rol oynamasını təşviq etməyə qərar veriblər.Təşkilat tədricən yüksələn dinamizmə malikdir və bu, üzv dövlətlər arasında əlaqələrin intensivləşməsi üçün imkanlar yaradır. Bu, dövlətlərə eyni cəbhədə yer almaq, onların digər platformalarda (məsələn, BMT-də) dəstəyini təmin etmək imkanı verir. Onların ölkəmizin maraqlarına dəstək ifadə edən mövqedən çıxış etmələri və maraqlarımızı əks etdirən beynəlxalq sənədlərin qəbul edilməsində iştirakı Azərbaycan diplomatiyasının qarşısında çox mühüm vəzifələr qoyur və böyük imkanlar təqdim edir.Qoşulmama Hərəkatı Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi üçün əhəmiyyətli platformadır. Ölkəmizin bu Hərəkatda iştirakı Ermənistan-Azərbaycan münaqişəsində haqlı mövqeyimizin üzv dövlətlərin diqqətinə çatdırılması baxımından çox vacibdir. Bu, artıq praktikada özünü doğrultmuş bir yanaşmadır. Belə ki, Qoşulmama Hərəkatının 2016-cı ildə Venesuelada keçirilən Sammitində qəbul edilmiş yekun sənəddə iştirakçı dövlətlər Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı prinsipi ilə həll edilməsinin zəruriliyini göstərmiş və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra edilməsinə çağırmışdılar. Oxşar mövqe Hərəkat üzvləri tərəfindən bu ilin iyul ayında Venesuela Respublikasının Karakas şəhərində keçirilən Nazirlər Şurasının yekun sənədində də ifadə edilib.

# Əli Kərimlinin xəyanətkar imici yeni rakursda cəmiyyətə təqdim olunur

***Müxalifətdaxili qarşıdurmalar fonunda, diqqətçəkən məqamlardan biri də, ondan ibarətdir ki, "Milli Şura" deyilən qondarma qurum, dağılmağa yaxın olduğu bir məqamda, Müsavatda yeni hadisələrin baş verməsidir. Daha doğrusu, "Milli Şura"da AXCP sədri Ə.Kərimlinin acınacaqlı duruma düşməsi, bir növ keçmiş başqan İsa Qəmbəri yenidən partiyanın rəhbərliyinə gəlməklə, müxalifətin önündə gedənlərdən olmağa həvəsləndirib. İ.Qəmbərin başqan olmaq arzusuna partiyanın yerli şöbələri də müsbət yanaşırlar. Eyni zamanda, Müsavat məclisinin üzvləri Yadigar Sadıqlı, Elman Fəttah və digərləri də, İ.Qəmbərin növbəti qurultayda başqan seçilməsini arzulayır və buna çalışırlar, Düzdür, indiki başqan Arif Hacılı heç hər vəchlə, partiyanın növbəti qurultayında İ.Qəmbər yenidən başqan seçilməsinə qarşı çıxır.***



Hətta İ.Qəmbərə qarşı Müsavatdaxili qruplaşmada yaradılıb və bu qruplaşmaya A.Hacılının qardaşı Mustafa Hacıbəyli rəhbərlik edir. Digər tərəfdən, AXCP sədri Ə.Kərimli əzəli və əbədi düşməni elan etdiyi Müsavatın "ana müxalifət partiyası" olmasına qarşı fəaliyyət göstərməkdədir. Ancaq qeyd etdiyim kimi, keçmiş başqana dəstək verənlərin sayı heç də az deyil. Onlar İ.Qəmbərə pərəstişliklərini açıqaydın sərgiləyirlər. Burada isə, Müsavatın eks-başqanı ilə müəyyən razılaşmanın da olduğunu istisna etmək olmaz.

## Əli Kərimli müxalifətin üz qarasına çevrilib

İ.Qəmbər əlində olan son rıçaqlarını istifadə edib, müxalifətə yeni statusda - "ana müxalifət lideri" statusunda geri dönməyi qarşısına məqsəd qoyub. Ancaq göründüyü kimi, bu, ona elə də asan başa gəlməyəcək. Çünki onun qarşısını kəsən - Əli Kərimli və Arif Hacılıdır. Xüsusi ilə də, Ə.Kərimlinin qeyri-ciddi, xalqa və dövlətə zidd siyasət aparması daha çox ikrah doğurur və ittiham hədəfi yaradır. Ə.Kərimlinin özünəpərəstişlik üzərində qurduğu "siyasətinin" əsas qayəsi də budur ki, "lider", yaxud "siyasi rəhbər" olaraq, tükənmiş AXCP sədri, hətta neçə illər öncə, hər hansı bir məsələ üzərində oynadığı oyunbazlığını bir müddət sonra təkrarlayır. Misal üçün, bu günlərdə bəlli olub ki, sosial şəbəkələrdəki trolları elə özünün tapşırığı ilə onun bir neçə il əvvəl çıxış etdiyi videosunu paylaşıblar. Daha dəqiq desək, Rusiya telekanallarına istinadən yayılan həmin süjetdə aparıcı Amerika Birləşmiş Ştatlarının Azərbaycana qarşı sərt davranacağından söz açır. Qeyd olunur ki, ABŞ Konqresinin Helsinki Komissiyasının rəyi ilə rəsmi Vaşinqton Azərbaycan hakimiyyətinə qarşı sanksiyalar tətbiq edəcək, yüksək ranqlı məmurların ölkəyə girişi qadağan olunacaq. Lakin aparılan araşdırma nəticəsində məlum olub ki, "Milli Şura" və AXCP üzvləri tərəfindən "böyük şövqlə" yayılan həmin video 3 il əvvəl efirə gedib və ötən müddətdə orada əks olunan iddialar özünü doğrultmayıb. Bu isə, sadəcə, gündəmdə qalmaq üçün növbəti manipulyasiyalardan biridir.

## Əli Kərimli hələ də müasir dövrün yenilikləri ilə uyğunlaşa bilmir

Hələ də, meydan təfəkküründə qalan Ə.Kərimli Azərbaycan dövlətinin yürütdüyü siyasətə qarşı ən murdar iftiralarını atır, bununla "mən də varam" deyib, siyasi arenada var-gəl edir. Özünü "birləşmiş müxalifətin lideri" kimi ictimai rəyə zorla sırımağa çalışan Ə.Kərimli elə sanır ki, o, həqiqətən də, düşərgədə "bir nömrədir". Bəzən uzağa gedərək, təşkil etdiyi mini aksiyalarda özünü "birləşmiş müxalifət"in lideri kimi təqdim etməyə çalışır. Ancaq reallıqda müxalifət düşərgəsində özünün qohum-əqrəbasından ibarət olan sıravi müxalifətçilərdən özgə onu qəbul edən və yuxarı başda oturmasını istəyən yoxdur. Ümumiyyətlə, pul gücünə mitinq keçirib, bunu "ümumxalq narazılığı" kimi təqdim edən Kərimli, bütövlükdə, 2500-3000 nəfəri "Azərbaycan xalqının etirazı" kimi qiymətləndirirsə, buna onun haqqı çatırmı? Əlbəttə ki, yox. O da, sirr deyil ki, hətta bütün müxalifət partiyalarının bir araya sığışdırsaq belə, onların öz tərəfdarları ilə bir yerdə aksiyalara qatılacaqları halda, "Məhsul"u doldura bilməyəcəkləri bəri başdan görünür. Bu isə, həm də belə nəticəyə gəlməyə zəmin yaradır ki, Ə.Kərimli və başına topladığı bitmiş siyasətçilər cəmiyyət tərəfindən rədd edilirlər.

## AXCP Əli Kərimlinin yarıtmaz siyasətinin badına getdi

Həm də maraqlı məqam ondan ibarətdir ki, zamanında Ə.Kərimlinin yanında olub, onunla eyni mövqedən çıxış edənlər və AXCP-nin maraqları üçün çalışanlar sonradan ondan yollarını ayırmalı oldular. Çünki aydın şəkildə dərk edib, gördülər ki, Ə.Kərimli satqın və xəyanət yolu tutub. Ə.Kərimli satqın və xəyanətkar əməllərini lideri, mərhum AXCP sədri Əbulfəz Elçibəyə qarşı da həyata keçirmişdi. Hətta deyilənlərə, daha doğrusu, Müasir Müsavat partiyasının sədri Hafiz Hacıyevin dediyinə görə, Əbulfəz Elçibəyi Ə.Kərimli zəhərləyib. Bir sözlə, Ə.Kərimli zatıqırıq, dostluq etdiyi, eyni siyasi məfkurəni bölüşdüyü insanlara xəyanət edən şəxsdir. Məhz Ə.Kərimlinin satqın və xəyanətkar olması səbəbindən, Əbülfəz Elçibəyin vəfatından sonra AXCP-də böyük yarpaq tökümü, ardından da, ümumiyyətlə, ağlı başında olanların oradan uzaqlaşması prosesi başlamışdı. Bu gün də, AXCP-dən istefalar baş verməkdədir. Qısası, Ə.Kərimlinin rəhbərlik etdiyi AXCP-si bu gün suyu qurumuş dəyirman kimidir. Vəziyyətin bu cür davam edəcəyi təqdirdə, AXCP tamamilə sıradan çıxmış olacaq. Çünki Ə.Kərimlinin yarıtmaz siyasi səhvlərini təkrarlaması bunu deməyə əsas verir.

***İ.ƏLİYEV***

# "Erməni əsgərlərinin Azərbaycan tərəfinə keçməsi..."

"Erməni əsgərinin Azərbaycan tərəfinə keçməsi ilk dəfə deyil və bunun bir sıra səbəbləri var. Düşmən ordusundakı özbaşınalıq, hərc-mərclik, nizamnamədənkənar davranışlar və digərləri səbəb yaradan əsas amillərdir". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Nəzakət Məmmədova deyib. Düşmən ordusunda regionçuluqdan yaranan təfriqə olduğunu deyən politoloq söyləyib ki, Qarabağ və Ermənistan erməniləri arasında bir-birinə qarşı ayrı-seçkilik, nifrətin olması sirr deyil. Onun sözlərinə görə, eləcə də, əsgərlərin maddi durumu və digər səbəblərdən şəxsi heyət arasında, zabitlərlə əsgərlər arasında daima münaqişə baş verir: "Düşmən ordusunda zorakılıq adi haldır, bu səbəbdən biz dəfələrlə gah orduda qiyam, gah da əsgər analarının etiraz mitinqlərinin keçirilməsi barədə xəbərləri eşidirik". N. Məmmədova söyləyib ki, erməni əsgərlərinin Azərbaycan tərəfinə keçməsinin başlıca bir səbəbi Azərbaycan dövlətinin və xalqının mahiyyətindən irəli gələn humanizm, beynəlxalq humanitar hüquqa riayət olunması, imzalanmış beynəlxalq öhdəliklərə sadiqlikdir: "Şərtlər nə olursa-olsun Azərbaycan dövləti heç bir zaman qəddarlıq, insan hüquq və azadlığının pozulması, milliyyətindən asılı olmayaraq şəxsiyyətin alçaldılması, ona qarşı nalayiq davranışı özünə rəva bilməyib, hətta müharibənin qızğın çağında belə ondan imdad diləyən düşmənə qarşı mərhəmətli davranıb. Azərbaycan Respublikası beynəlxalq humanitar hüquqa, 1948-ci il Cenevrə konvensiyalarına ciddi riayət edir".Politoloq qeyd edib ki, Azərbaycan tərəfi öz ordusundakı zülmdən qaçıb ölkəmizə sığınan həmin ermənilərin əksəriyyətinin işğalçı ölkədə mövcud olan hazırkı yarımhərbi avtoritar rejimin girovları olduğunu anlayır: "Onlar zülmdən qurtulmaq, həyatda qalmaq ümidi ilə Azərbaycana pənah gətiriblər. Elə sonuncu dəfə ağ bayraq qaldıraraq tərəfimizə keçən əsgər Kazaryan da bədənindəki xəsarətlərlə bizə sığınıb. Azərbaycan ordusunda ona tibbi yardım göstərilir, müalicə edilir. Bu, misilsiz insanlıq nümunəsi, humanizmin bariz nümunəsidir. Çünki əgər düşmən belə sənə sığınıb imdad diləyirsə, ona mərhəmət göstərmək lazımdır. Kömək istəmək məzluma, mərhəmət göstərib yardım etmək güclüyə və ali düşüncəyə xas xüsusiyyətlərdir. Çox istərdik ki, beynəlxalq təşkilatlar bunu görsün, daima haqsız ittiham etdiyi ölkənin davranışını himanizm nümunəsi kimi qəbul etsin".



***Nailə Məhərrəmova***

# Saxlanılan şəxslərin hüquqları qanunvericiliklə qorunur

***Həbs yerlərində saxlanılan şəxslərlə təkbətək söhbət zamanı saxlanma şəraiti və onlarla rəftar, vəkillə təmin olunması, şübhəli şəxs qismində saxlanılarkən hüquqlarının izah edilməsi, prokuror nəzarətinin aparılması halları araşdırılmış, hüquqları izah edilmiş, həmçinin, saxlanılmanın qanuniliyinə dair müvafiq sənədlərlə tanış olunmuşdur. Bununla yanaşı, həmin müəssisələrin rəhbərlərinə şəraitin təmin edilməsi və sənədləşmənin aparılması ilə bağlı zəruri tövsiyələr verilmiş, "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri, həmçinin, hüquq və vəzifələri müəssisə əməkdaşlarının, habelə, şübhəli və təqsirləndirilən şəxs qismində saxlanılan şəxslərin diqqətinə çatdırılmışdır.***

Müvəqqəti saxlama yerlərinin və istintaq təcridxanalarının standartlara uyğun əsaslı təmir olunması və ya yeni istifadəyə verilmiş binalara köçürülməsi, habelə, müasir avadanlıqlarla təchiz olunması saxlanma şəraitinin daha da yaxşılaşmasına və saxlanılan şəxslərlə raftarın təkmilləşdirilməsinə şərait yaratmışdır.

Polis orqanlarının, o cümlədən, müvəqqəti saxlama yerlərinin əməkdaşları ilə görüşlər zamanı hüquqi maarifləndirmə işləri də aparılmış, insan hüquq və azadlıqlarının təmin olunmasına xüsusi diqqət yetirilməsinin vacibliyi, vətəndaşlara qarşı qeyri-etik davranışın və kobudluğun yolverilməzliyi, fəaliyyətin təkmilləşdirilməsinin vacibliyi diqqətə çatdırılmış, mövcud nöqsanların aradan qaldırılması ilə bağlı tövsiyələr verilmişdir.

Şikayətlərdə öz əksini tapmış, habelə, "qaynar xətt" vasitəsilə çatdırılmış məlumatlar əsasında müvəqqəti saxlanılma yerlərinə və istintaq təcridxanalarına keçirilmiş çoxsaylı baxışlar zamanı insan hüquqlarının pozulması halları aşkar edildiyi təqdirdə, irad və təkliflərlə Baş Prokurorluğa və müvafiq nazirliklərə müraciətlər edilmişdir. Xidməti araşdımalar nəticəsində qanun pozuntusuna yol verildiyi təsdiqləndiyi halda, buna yol vermiş əməkdaşlar cəzalandırılmış, aşkar edilmiş çatışmazlıqlar isə aradan qaldırılmışdır.

"Qanunsuz miqrantların saxlanılması mərkəzlərinin daxili intizam Qaydaları"nın layihəsinə dair təkliflər hazırlanması və aidiyyatı üzrə təqdim edilmişdir.

Qeyd edilənlər, bir daha onu deməyə əsas verir ki, müvəqqəti saxlanılma yerlərində yaranan sıxlığın nəzərə alınması, tibbi və sanitar qaydalara əməl olunması, müxtəlif xəstəlik daşıyıcısı olan şəxslərin ayrı saxlanması, saxlanma şəraitinin diqqətdə saxlanılması üçün daha güclü nəzarət və müntəzəm tədbirlərin görülməsi zəruridir.

Şərəf və ləyaqətin müdafiəsi hüququ. Bu hüququn pozulması ilə bağlı 573 müraciət daxil olmuşdur. Müraciətlərdə, əsasən, məmurlar tərəfindan vətəndaşa qarşı kobud rəftar və etik davranış qaydalanrıın pozulması kimi hallar öz əksini tapmışdır. Həmin müraciətlər üzrə aidiyyəti qurumlara yoxlama tapşırıqları verilmiş, bəzi şikayətlər üzrə yerində araşdırmalar aparılmış, müvafiq tədbirlər görülmüş, qanun pozuntusu müəyyən edildiyi hallarda, günahkar şəxslər intizam qaydasında cəzalandırılmışdır.

Müvəkkilin fəaliyyətə başladığı ilk illərdən onun təşəbbüsü ilə işgəncə, qəddar, qeyri-insani və ləyaqəti alçaldan münasibətlərin, kobud rəftarın qarşısının alınmasına xidmətin səmərəli təşkili məqsədilə aparatda 24 saat fəaliyyət göstərən "qaynar xətt", həmçinin, hüququ pozulmuş uşaqların problemləri ilə bağlı Müvəkkilə dərhal müraciət etmək imkanı verən "916" nömrəli "qaynar xətt" təşkil edilmiş, daxil olan məlumatlar əsasında araşdırmalır aparılmış və tədbirlər görülmüşdür.

Şikayətlərdə yerli icra strukturlarına müraciət edən vətəndaşların məmur biganəliyi və laqeydliyi ilə yanaşı, təhqiramiz hərəkətlərlə və kobud münasibətlə üzləşdikləri hallar da öz əksini tapmış, lakin həmin şikayətlərdə əks etdirilmiş bu halların yoxlanılması məqsədilə səlahiyyətli qurumlara göndərilmiş tapşırıqlara verilmiş cavablarda, bir qayda olaraq, müvafiq hərəkətlərə yol verilmədiyi bildirilmişdir.

Vətəndaşların şərəf və ləyaqətinin müdafiəsi hüququnun dövlətin məcburetmə səlahiyyətlərinə malik qurumlarının əməkdaşları tərəfindən baş verən və ya baş verə biləcək pozulması hallarının qarşısının alınmasına, vətəndaşlarda hüququn aliliyinə və ədalətə olan inamın daha da artmasına, dövlət qurumlarına, o cümlədən, hüquq-mühafizə orqanlarına etimadın yüksəlməsinə xidmət edən tədbirlərin davamlılığı təmin olunmaqdadır.

Müvvəkilin işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəfttar və ya cəzaların qarşısının alınması üzrə Milli Reventiv Mexanizmin (MPM) qismində fəaliyyəti uğurla davam etdirilmişdir. Milli Preventiv Qrup (MPQ) tərəfindən 240 azadlıqdan məhrumetmə və azadlığın məhdudlaşdırılması yerinə, o cümlədən, penitensiar müəssisələrə, müvəqqəti saxlama yerlərinə, uşaq evlərinə və internatlar, ahıllar və əlillər üçün internat evlərinə və pansionatlara, psixiatriya xəstəxanalarına, mütəmadi olaraq, plan üzrə və ya təxirə salınmadan, əvvəlcədən xəbərdarlıq edilmədən, ümumilikdə, 329, plan üzrə 250, plandankənar isə 79, o cümlədən, Daxili İşlər Nazirliyinin müvəqqəti saxlanılma yerblərinə 173, Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin istintaq təcridxanalarına, cəzaçəkmə müəssisələrinə, məntəqə tipli həbsxanaya, müalicə müəssisəsinə 104, Milli Təhlükəsizlik Nazirliyinin İstintaq Təcridxanasına və Müvəqqəti Saxlanılma Yerinə 2, Müdafiə Nazirliyinin intizam xarakterli hərbi hissəsinə və hauptvaxtına 2, Dövlət Miqrasiya Xidmətinin Qanunsuz Miqrantların Saxlanılma Mərkəzinə 3, Təhsil Nazirliyinin xüsusi təlim-tərbiyə, habelə, internat müəssisələrinə və xüsusi peşə məktəbinə 27, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin pansionatlarına, ahıllar və əlillər üçün internat evlərinə 6, Səhiyyə Nazirliyinin psixiatriya xəstəxanalarına, ruhi-əsəb dispanserlərinə, psixonevroloji uşaq evinə, uşaq və körpələr evlərinə 7, yerli icra hakimiyyətlərinin tabeliyində olan uşaq evlərinə 5 başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı, xüsusilə, rəftar, saxlanma şəraiti, sənədləşmə, tibbi xidmətin vəziyyəti, qidanın rasionu və keyfiyyəti, habelə, məhkumlara olunan islahetmə vasitələri, onların asudə vaxtının təşkili kimi məsələlər diqqətdə saxlanılmış, saxlanılan şəxslərlə təklikdə və konfedensial görüşlərə üstünlük verilmişdir.

Müvəkkilin müraciəti əsasında Azərbaycan Respublikası daxili işlər nazirinin göstərişi ilə yerli polis orqanlarında həmin "qaynar xəttin nömrəsinin də göstərildiyi "İşgəncələr haqqında məlumatı Ombudsmana ötür!" başlıqlı müvafiq elanlar asılmışdır. Bununla belə, bəzi polis orqanlarında hökumət təşkilatlarına məxsus telefon nömrələrinin Müvəkkilin "qaynar xətt" kimı göstərilməsi də yolverilməzdir. Müvəkkilin təkrar müraciətindən müvafiq "qaynar xətt" nömrəsinin ayrıca lövhədə əks etdirilməsi barədə polis orqanlarına göstəriş verilmişdir.

Başçəkmələr zamanı müvəqqəti saxlanılma yerlərində 440, istintaq təcridxanalarında və çəzaçəkmə müəssisələrində 1012, şəxsin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə 500-dən çox saxlanılan şəxslə təklikdə, həmçinin, bu müəssisələrin 450-dən çox əməkdaşı ilə fərdi söhbətlər aparılmışdır. Müəssisə rəhbərləri və aidiyyəti vəzifəli şəxslər tərəfindən MPO üzvlərinə başçəkmələr zamanı lazımi şərait yaradılmış, verilmiş tövsiyələrin icrası və pozuntuların aradan qaldırılması üzrə tədbirlər görülmüşdür.

Müvəkkil azadlıqdan məhrumetmə və azadlığın məhdudlaşdırılması yerlərində müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması ilə bağlı müvafiq tədbirlərin görülməsi, sənədləşmənin təkmilləşdirilməsi və nəzarətin gücləndirilməsi, aşkar edilmiş pozuntu hallarının qarşısının alınması həmin müəssisələrin rəhbərlərinin təlimatlandırılması, habelə, təsdiq olunmuş qrafik üzrə birgə monitorinq və treninqlərin keçirilməsi təklifi ilə müvafiq nazirliklərə müraciətlər etmişdir.

> Şikayətlərdə öz əksini tapmış, habelə, "qaynar xətt" vasitəsilə çatdırılmış məlumatlar əsasında müvəqqəti saxlanılma yerlərinə və istintaq təcridxanalarına keçirilmiş çoxsaylı baxışlar zamanı insan hüquqlarının pozulması halları aşkar edildiyi təqdirdə, irad və təkliflərlə Baş Prokurorluğa və müvafiq nazirliklərə müraciətlər edilmişdir. Xidməti araşdırmalar nəticəsində qanun pozuntusuna yol verildiyi təsdiqləndiyi halda, buna yol vermiş əməkdaşlar cəzalandırılmış, aşkar edilmiş çatışmazlıqlar isə aradan qaldırılmışdır

**_VAHİD ÖMƏROV,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# İldırım zərbəsi bir kəndi kül etdi



İspaniyada ildırım zərbəsi 40 təkərli evdən ibarət kəndi kül edib.

Milli.Az qafqazinfo-ya istinadən xəbər verir ki, hadisə ölkənin Ventalyo yaşayış məntəqəsində qeydə alınıb. Yanğın 1,5 min kv.m. ərazini əhatə edib. Onun söndürülməsinə altı yanğınsöndürən maşın cəlb olunub. Hadisə nəticəsində xəsarət alan şəxslər haqda məlumat verilməyib.

# Alimlər 500 yaşlı köpəkbalığı aşkar ediblər



Alimlər Şimali Atlantika sularında yaşı 500 ilə çatan köpəkbalığı aşkar ediblər.

SİA"The Sun" qəzetinə istinadən xəbər verir ki, bu canlı Qrenlandiya köpəkbalıqları növünə aiddir.

Onların yaşını bədənlərinin ölçülərinə görə müəyyən etmək mümkündür. Belə ki, bu köpəkbalıqları ildə bir santimetr boy atır.

Bildirilir ki, aşkar olunmuş köpəkbalığının bədəninin uzunluğu 5,4 metrdir. Onun təxminən 1505-ci ildə dünyaya gəldiyi güman olunur.

# "YouTube" rəhbəri uşaqlarına telefonu qadağan edir

"YouTube" videohostinqinin rəhbəri Syuzen Voyjitski uşaqlarına telefondan istifadə etməyə icazə vermir.

SİA xəbər verir ki, Voyjitski real həyatda daha çox vaxt keçirmələri üçün tez-tez uşaqlarının əlindən telefonlarını aldığını deyib. Onun fikrincə, uşaqlara 11 yaşından sonra telefondan istifadəyə icazə verilməlidir.

"YouTube" sahibi bu qadağanın köməyi ilə uşaqlarına smartfonlarsız vaxt keçirməyi öyrədir, canlı ünsiyyətə, məktəbə, idmana daha çox vaxt ayırmalarını təmin edir. Syuzen uşaqlarına qadağanı daha çox bütün ailə bir yerdə olanda qoyur.

# Yunanıstanın iki çimərliyi dünyanın ən gözəl çimərlikləri sırasında yer alıb



Yunanıstanın Krit adasında yerləşən Elafonisi və Mikonos adasındakı Psaru çimərlikləri "Online Travel Platform" səyahət platformasının tərtib etdiyi dünyanın ən gözəl 50 çimərliyi siyahısında yer alıblar. Onlar müvafiq olaraq 26-cı və 35-ci yerlərdə qərarlaşıblar.

SİA xəbər verir ki, hər iki çimərlik turistlər tərəfindən infrastruktur, gözəl mənzərə, qum və digər kateqoriyalara görə fərqlənib.

Siyahıda birinci yerdə Xorvatiyada yerləşən Zlatni Rad (Qızıl buynuz) çimərliyi qərarlaşıb.

**BAŞSAĞLIĞI**

Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov və təşkilatın kollektivi YAP Ordubad rayon təşkilatının sədri

**Qürbət Rzayevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin!***

# Ronaldo Messidən danışdı



"Yuventus"un futbolçusu Kriştiano Ronaldo "Barselona"nın oyunçusu Lionel Messi ilə arasındakı fərqdən danışıb. SİA-nın məlumatına görə, o, bununla bağlı deyib: "Fərq ondadır ki, fərqli klublarda oynamışam və fərqli komandalarla Çempionlar Liqasını qazanmışam. Ardıcıl 6 il bu turnirin ən yaxşı bombardiri olmuşam. Çox az oyunçu Çempionlar Liqasının kubokunu 5 dəfə qazanıb".

Portuqaliyalı hücumçu Messinin əla futbolçu olduğunu da söyləyib: "Onu təkcə 5 dəfə "Qızıl top"u qazanması ilə yox, həm də mənim kimi ilbəil daha yaxşı olması ilə xatırlayacaqlar".

# Yeni mövsümdə yeni liqa əlavə olunacaq

AFFA

2019/2020-ci il mövsümündən etibarən AFFA-nın təşkil etdiyi uşaq liqalarının siyahısına daha bir yaş qrupu üzrə turnir - U-9 Liqası əlavə olunacaq. SİA-nın məlumatına görə, U-9 Liqasının ilk mövsümü Bakı, Sumqayıt və Gəncə şəhərləri üzrə keçiriləcək.

Liqada oyunlara sentyabrın son həftəsində start verilməsi planlaşdırılır. Mövsümə apreldə yekun vurulacaq.

Liqada keçiriləcək oyunların nəticəsi qeydə alınmayacaq, liqa üzrə qaliblər müəyyənləşdirilməyəcək.

Nəticələr qeydə alınmayacağı üçün final mərhələsi təşkil olunmayacaq, əvəzində, hər 3 şəhəri təmsil edən komandalar mövsümün sonuna qədər çıxış edəcəklər.

Oyunların idarə olunması hər hissədə bir komandanın məşqçisinə həvalə olunacaq. Liqanın yeni formatda təşkilində məqsəd uşaqların daha çox oyun keçirməsinə, komandaların oyunun nəticəsinə deyil, keyfiyyətinə diqqət ayırmasına nail olmaqdır.

Bakı, Sumqayıt və Gəncə şəhərləri üzrə qeydiyyatdan keçmək istəyən komandalar liqalar@affa.az e-mail ünvanına müraciət ünvanlaya bilər.

Qeydiyyat 18 avqust - 10 sentyabr tarixləri arasında aparılacaq.

# Dünya çempionatında güləşçilərimiz yer tutublar



Estoniyanın paytaxtı Tallində gənc güləşçilər arasında dünya çempionatı davam edir. SİA-nın məlumatına görə, mundialın ilk medal günündə Azərbaycan millisinin 2 sərbəst güləşçisi fəxri kürsüyə qalxıb.

Yığmamızın heyətində Turan Bayramov (65 kq) üçüncü yer uğrunda Ahmet Salim Yiğitlə (Türkiyə) üz-üzə gəlib və 8:0 hesabı ilə qələbə qazanıb. Onun kimi, Abubakr Abakarov (79 kq) da bürünc medala sahib olub. Pəhləvanımız üçüncü yer uğrunda qarşılaşmada erməni Arman Avaqyana 6:4 hesabı ilə qalib gəlib. Digər güləşçilərimizdən Mahir Məmmədzadə (57 kq) təsəlliverici, Əşrəf Aşırov (70 kq) üçüncü yer uğrunda görüşdə məğlub olub.

# Dünya çempionatında yarışacaq cüdoçularımız kimdir?



Yaponiyanın paytaxtı Tokio şəhərində keçiriləcək dünya çempionatında Azərbaycanın 16 cüdoçusu çıxış edəcək. SİA-nın məlumatına görə, ölkəmiz mundialda 9 kişi və 7 qadın idmançı ilə təmsil olunacaq. Belə ki, qızlar arasında Aişə Qurbanlı, Leyla Əliyeva (hər ikisi 48 kq), Gültac Məmmədəliyeva, Aleksandra-Larisa Florian (hər ikisi 52 kq), Munxtsedev İçinxorloo (57 kq), Günel Həsənli (70 kq), İrina Kindzerska (+78 kq) mübarizə aparacaqlar.

Oğlanların yarışlarında isə Davud Məmmədsoy (60 kq), Nicat Şıxəlizadə (66 kq), Rüstəm Orucov, Hidayət Heydərov (hər ikisi 73 kq), Murad Fətiyev (81 kq), Məmmədəli Mehdiyev (90 kq), Elmar Qasımov, Zelim Kotsoyev (hər ikisi 100 kq), Uşangi Kokauri (+100 kq) güclərini sınayacaqlar.

Cüdo millimizin üzvləri 8 gün ərzində medallar uğrunda yarışacaqlar. Cüdo üzrə dünya çempionatına avqustun 25-də start veriləcək. Yeddi gün ərzində keçiriləcək fərdi mübarizələrdən sonra sentyabrın 1-də qarışıq komanda yarışı keçiriləcək.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**